# HƏFTƏ İÇİ

www.hafta.az

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

№ 36 (3360) Şənbə / 10-12 aprel 2021-ci il Qiymәti 40 qәpik


# RÜSTƏM MURADOV:

# "Ermənistan hakimiyyəti yalançıdır"



*Rus sülhməramlılarının rəhbəri ilə Paşinyan hökuməti arasında qarşıdurma*

**Qarabağdakı Rusiya sülhməramlı kontingentinin komandanı, general-leytenant Rüstəm Muradov aprelin 8-də Bakıda İrəvana erməni əsirlərin gətirilməsinin gözlənildiyi barədə yayılmış məlumatları təxribat adlandırıb. Ermənistanın ”Hraparak.am” saytının əməkdaşı İrəvanda rusiyalı generala ötən gün Azərbaycanda saxlanılan erməni hərbi əsirlərin nə üçün qaytarılmadığı barədə sual verib. Jurnalistin “Onda nə üçün dünən Ermənistan rəsmiləri Azərbaycanla əsirlərin dəyişdiriləcəyi barədə açıqlama vermişdi” sualına cavabında Rüstəm Muradov “Bu, yalan və təxribatdır. Onlardan soruşun. Onlar xalqı aldadırlar. Bu planlaşdırılmış, adi səfər idi”, - deyə general-leytenant Bakı və İrəvana səfəri barədə söyləyib. Qeyd edək ki, dünən Ermənistanın hakimiyyət nümayəndələri Bakıdan Ermənistana erməni hərbi əsirlərindən ibarət növbəti qrupun təyyarə ilə yola düşüyü barədə məlumat yayıb. Yaxınlarının itkin, yaxud əsir düşüyünü güman edən şəxslər təyyarəni qarşılamaq üçün aeroporta gəlsələr də, məlum olub ki, təyyarədə hərbi əsirlər yoxdur.**

Bakıdan gələn təyyarədə yalnız Qarabağdakı Rusiya sülhməramlı kontingentinin komandanı, general-leytenant Rüstəm Muradovun olduğu açıqlanıb. Azərbaycan DTX-sının dekabrda yaxaladığı erməni terrorçuların yaxınları Şirak əyalətində yolu bağlayıb. Aksiyaçılar Gümrü-İrəvan, o cümlədən Aşotsk və Vanadzor yolunu bloklayıblar.

Onlar bildiriblər ki, tələbləri birdir: doğmalarının geri qaytarılması. Qeyd edək ki, 10 noyabr bəyanatından sonra Şirakdan Azərbaycanın Qarabağ bölg-



əsinə gələn erməni silahlıları DTX-nin antiterror əməliyyatı nəticəsində ələ keçiriliblər.

Güman edirəm ki, “əsirlər”in qarşılığında Əliyev Paşinyandan Mehri vasitəsilə dəhliz istəyir. Bunu erməni politoloq Aleksandr İsgəndəryan deyib. O, dünən baş verənlərin assimetrik danışıqların nəticəsi olduğunu bildirib: “Tərəflərdən birinin əlində digərinə təzyiq yaradacaq rıçaq yoxdur. Belə olan halda nəyə ümid etmək lazımdır? Ürəyi yumşaqlığa? İlham Əliyevin əsirləri geri qaytarmaq üçün heç bir səbəbi yoxdur. Maksimum bir neçə hərbçinin qayıdacağına ümid etmək lazımdır”. Onun sözlərinə görə, seçkiyə qədər Mehri vasitəsilə dəhlizlə bağlı danışıqlar hazırkı hakimiyyət üçün çox ciddi bir şey deyil: “Hazırda söhbət Türkiyə və Azərbaycanın tələbindən gedir. Bu, təmiz siyasi layihədir. Hər tərəfin öz mövqeyi var, Azərbaycan isə sadəcə müharibənin nəticələrindən maksimum fayda götürməyə çalışır, ermənilərin ağrılı nöqtələrinə vurur. Onlara Türkiyəyə ermənilərin nəzarəti olmadan gedəcək yol lazımdır”.

**Aleksey Fenenko, rusiyalı ekspert:**

- İrəvan seçkiöncəsi kampaniya müddətində Azərbaycanda saxlanılan erməni terrorçular məsələsi üzərindən oynamağa başlayacaq. Ümumilikdə Ermənistanın feyk xəbər və təxribatlarla Azərbaycan və Rusiyaya təzyiq göstərmək istəyi müşahidə edilir. Bu taktika müxalifətin seçkilərdə qalib gələcəyi zaman daha da güclənə bilər. Əgər seçkiləri Vazgen Manukyana yaxın şəxslər udsalar təbii ki, bu proses daha da genişlənəcək.

**Qabil Hüseynli, politoloq:**

- Paşinyanın Azərbaycanın dekabrda yaxaladığı erməni terrorçularla bağlı gedişi “riskli qumar”dan başqa bir şey deyil. Məsələ ondadır ki, Azərbaycan tərəfi saxlanılan bütün hərbi əsirləri Ermənistana təhvil verdiyini açıqca elan edib. Bu gün Ermənistan baş nazirinin bizdən istədiyi şəxslər hərbi əsir statusuna malik deyil. Bu şəxslər DTX-nın dekabrda yaxaladığı erməni terrorçulardır. Yəni bu şəxslər 44 günlük müharibə zamanında deyil, müharibədən sonra saxlanılıb. Onların, hətta Qarabağa 2020-ci il noyabrın 26-da Şirakdan gəldiyi təsdiqlənib. Yəni müharibənin bitməsindən 16 gün sonra. Buna görə də bu şəxslər heç bir halda hərbi əsir sayıla bilməz və onların aqibəti barədə yekun qərarı rəsmi Bakı verəcək. Ümumiyyətlə, Muradovun təyyarəsinin məhz indi Bakıya gəlməsi olduqca maraqlıdır. Proseslərin ardıcıllığı - 7 apreldə Nikol Paşinyanla Vladimir Putinin görüşü, nəqliyyat kommunikasiyalarının açılması barədə müzakirə, həmçinin Paşinyanın “hərbi əsirlər” mövzusunu gündəmə gətirməsi, ardınca Rusiya Baş prokurorunun Ermənistana və Azərbaycana səfəri, Putinin İlham Əliyevə zəngi və müzakirə aparması və s. mümkün razılaşma olduğunu düşünməyə əsas verir. Buna görə də rus sülhməramlılarının rəhbəri Bakıya gəlib. Ancaq son anda Ermənistan hansı vədi yerinə yetirməyib ki, proses alınmayıb - bu haqda məlumat yoxdur. Ehtimallardan biri Ermənistanın Qarabağdakı minalanmış ərazilərin xəritəsini verməməsidir. Bu, kifayət qədər ağlabatan versiyadır. Fikrimcə, bu vəd verilib, konkret addım üçünsə vaxt istənilib. Azərbaycan isə Ermənistana güvənmədiyi üçün vədin dərhal yerinə yetirilməsini tələb edib. Bu, əlbəttə, ehtimaldır. Ermənistanın necə etibarsız, sözündən qaçan və vədinə xilaf olduğunu Azərbaycan çox gözəl bilir. Ona görə də Muradova terrorçuları təhvil verib, sonra xəritə və yaxud hansısa vədin reallaşmasını gözləmək istəməyib və tamamilə doğru da edib”.

**Elxan Şahinoğlu, politoloq:**

- Gün ərzində çox maraqlı hadisələr baş verdi. Nikol Paşinyan Moskvada Rusiya prezidenti Vladimir Putinlə görüşdükdən sonra İrəvanda Rusiyanın baş prokuroru İqor Krasnovu qəbul etdi. Krasnov Azərbaycan prezidenti İlham Əliyevlə görüşmək məqsədilə İrəvandan sonra Bakıya gəldi. Hiss olunurdu ki, Kreml Krasnovu xüsusi missiya ilə Bakı və İrəvana göndərib. Böyük ehtimalla Rusiyanın baş prokuroru “əsirlər” məsələsiylə bağlı danışıqlar da aparıb. Gün ərzində İrəvanda enən təyyarədə “erməni əsirlərin” geri qaytarılacağı xəbərləri yayılmağa başlandı. Ancaq Ermənistan baş nazirinin müavininin mətbuat katibi Njde Ovsepyan açıqlama verərək İrəvana enən təyyarənin içində heç bir “erməni əsirin” olmadığını yazdı. İrəvanda “əsirləri” gözləyərkən Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Bin Əhməd Əl-Osaymin ilə keçirilən birgə mətbuat konfransında dedi ki, “hərbi əsirlər mövzusu bağlanıb”. “İsgəndər” və minalanmış ərazilərin xəritəsi məsələsinə aydınlıq gətirmədən “əsirlərin” - erməni diversantların geri qaytarılması Azərbaycanın maraqlarına cavab verməyəcək.

*✍ Azad*

MÜSAHİB

## “Donbasda durum Qarabağdan xeyli fərqlidir”



**Elxan Nuriyev,**
Radanın məsləhətçisi, nazir müşaviri

***“Həftə içi” əməkdaşı bu günlərdə vəziyyətin yenidən gərginləşdiyi Ukraynadakı Donbas regionundakı son durum, Putinin genişmiqyaslı hücum üçün əmr vermək ehtimalı, ABŞ və NATO ölkələrinin buna münasibəti, eləcə də Qarabağ və Donbas problemlərindəki bəzi fərqli cəhətlər barədə Ukraynadakı Azərbaycan diasporunun tanınmış simalarından olan Ali Radanın hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi, eyni zamanda Elm və Təhsil nazirinin müşaviri Elxan Nuriyevlə söhbət edib.***

*Ukrayna öz təşəbbüsü ilə müharibə başlatmaq fikrində deyil...*

▸▸ Səh. 2

MÜSAHİB



**Elşad Musayev,**
Bütöv Azərbaycan Partiyasının sədri

■ İndi istənilən partiya təklifini hakimiyyətə çatdıra bilir...

■ Problemlərin həlli ilə bağlı hakimiyyətlə dil tapmaq olar...

■ Siyasi partiyaların borcu, vəzifəsi problemi qaldırmaq və eyni zamanda təkliflər verməkdir...

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



**Ukrayna Prezidenti Zelenski Donbassda...**

GÜNÜN SİTATI



*“Yüksək gəlirli ölkələrdə orta hesabla hər dörd nəfərdən biri COVID-19 əleyhinə peyvənd olunub. Aşağı gəlirli ölkələrdə isə hər 500 nəfərdən biri peyvənd edilir”*

**Tedros Adhonom Qebreyesus,**
ÜST-nin baş direktoru

KARİKATURA




**Diqqət, hər yerdə ola bilər...**

## “Azərlotereya”da yeni dönəm

**Rəşad Həsənov,**
iqtisadçı ekspert

Əksər hallarda biz dövlət şirkətlərinin səmərəsiz fəaliyyət göstərdiyini müşahidə edirik.

▸▸ Səh. 5

STATİSTİKA



**■ 2021-ci ilin 3 ayı ərzində respublika ərazisində ölüm və xəsarətlə nəticələnən 376 yol-nəqliyyat hadisəsi qeydə alınıb.**

Bu qəzalarda 125 nəfər həlak olub, 370 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə hadisələrin sayı 45 (-10,7%) fakt, ölənlərin sayı 56 (-30,9%) nəfər, yaralananların sayı isə 8 (-2,1%) nəfər azalıb.



▸▸ Səh. 6

## Pandemiya dövründə ikinci Ramazan bayramı

# PREZİDENTİN İŞ GÜNÜ

**Tibb xidməti polkovniki Elxan Paşa oğlu İbrahimova "tibb xidməti general-mayoru" ali hərbi rütbəsi verilib. Prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb.**



***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovu qəbul edib.**

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Bildirilib ki, ölkələrimizin prokurorluq orqanları arasında həyata keçirilən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin genişlənməsi işinə töhfə verməklə bərabər, ölkələrimiz qarşısında duran təhdidlər, müasir çağırışlar, cinayətkarlığa qarşı mübarizə işində mühüm rol oynayır. Söhbət zamanı əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu, perspektiv məsələlər müzakirə edilib.

# Qəbul

# "Çalışırıq ki, bu ədalətsizliyi aradan qaldıraq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırı qəbul edib. Volkan Bozkırı salamlayan Prezident İlham Əliyev dedi:**



## Vaksin millətçiliyi, vaksinlərin ədalətsiz bölüşdürülməsi bu gün artıq dünya gündəmini zəbt edən bir məsələdir

- Xoş gəlmisiniz. Sizinlə dəfələrlə görüşmüşdük, Bakıda siz dəfələrlə olmusunuz. Amma bu dəfə BMT Baş Assambleyasının prezidenti kimi səfər edirsiniz. Çox gözəl hadisədir. Şadam ki, Azərbaycana səfər edirsiniz.

Bildirməliyəm, biz fəxr edirik ki, qardaş ölkənin nümayəndəsi BMT Baş Məclisinin prezidentidir. Bilirəm ki, COVID-ə baxmayaraq, 75-ci sessiya uğurla davam edir və burada sizin böyük səyləriniz vardır.

Eyni zamanda, bizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Bilirsiniz ki, biz COVID-lə bağlı bir neçə təşəbbüslə çıxış etdik. Türk Şurasının Zirvə görüşünü, Qoşulmama Hərəkatının Zirvə görüşünü keçirdik və COVID-lə bağlı BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə də nail olduq və sizin də böyük dəstəyiniz oldu. Hesab edirəm, ondan sonrakı hadisələr göstərdi ki, doğrudan da bu, indi gündəlikdə duran önəmli məsələlərdən biridir. Çünki vaksin millətçiliyi, vaksinlərin ədalətsiz bölüşdürülməsi bu gün artıq dünya gündəmini zəbt edən bir məsələdir. Azərbaycan ilk ölkələrdən idi ki, bu məsələni açıb qaldırdı. Bu gün biz çalışırıq ki, bu ədalətsizliyi aradan qaldıraq. Eyni zamanda, COVID dönəmində biz 30-dan çox ölkəyə maddi və humanitar yardım göstərmişik və bu fəaliyyəti davam etdirmək əzmindəyik.

BMT qurumları ilə bizim ənənəvi sıx əlaqələrimiz olubdur və bu əlaqələr davam edir. Müharibədən sonrakı dövr ərzində təmaslar daha fəal olub və bu təmaslar davam etdiriləcək və əlbəttə ki, bundan sonra BMT dünyanın aparıcı qurumu kimi postmünaqişə dövründə də fəal olmalıdır. Mən dəfələrlə bildirmişdim ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bunu həll edib və 30 ilə yaxın kağız üzərində olan qətnamələri yerinə yetirib və artıq münaqişə tarixdə qalıbdır. İndi isə yeni dövr başlayıb - quruculuq dövrü, bərpa dövrü. Artıq buna da start verilmişdir və BMT-nin bütün qurumları ilə, o cümlədən biz artıq UNESCO ilə sıx təmasdayıq. UNESCO ilə gedən müzakirələr əsnasında missiyanın göndərilməsi nəzərdə tutulur. Əslində biz münaqişə dövründə dəfələrlə UNESCO-ya müraciət etmişdik ki, faktaraşdırıcı missiyanı işğal edilmiş bölgələrə göndərsin. Çünki bizdə olan məlumata görə, orada bizim tarixi, dini, mədəni abidələrimiz ermənilər tərəfindən dağıdılmışdır və biz istəyirdik ki, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə bilavasitə məşğul olan UNESCO gəlsin və bunu təsdiq etsin. Əfsuslar olsun münaqişə dövründə bu təklifimiz cavabsız qalmışdır, ancaq münaqişədən sonra indi missiyanın göndərilməsi gözlənilir. Biz bunu alqışlayırıq. Çünki azad edilmiş torpaqlarda erməni vəhşiliyi, vandallığı göz qabağındadır. Nə qədər çox beynəlxalq təşkilatlar bunu öz gözləri ilə görsələr, münaqişə ilə bağlı, Ermənistanın işğalı ilə bağlı dünya birliyində təsəvvür o qədər də daha geniş olar.

Bir sözlə, hörmətli Volkan bəy, biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Bir daha Azərbaycana gəldiyiniz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, siz bu yaxınlarda Türkiyəyə, Vətəninizə səfər etmisiniz və Azərbaycana, yenə də Vətəninizə səfər edirsiniz.

**BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır dedi:**

- Hörmətli cənab Prezident.

Həqiqətən də Azərbaycana BMT Baş Assambleyasının sədri olaraq ilk səfərimi etməkdən böyük məmnunluq və qürur duyuram. Azərbaycan BMT üçün çox önəmli bir ölkədir. Zati-alinizin pandemiya dövründə rəhbərlik etdiyi BMT-nin xüsusi sessiyası həqiqətən tam zamanında və son dərəcə önəmli nəticələr ortaya qoyan bir toplantı oldu. Sizin aylarla sürən səyləriniz, əslində, mənə sədrlik etmək qürurunu bəxş etdi və bu baxımdan Sizə təşəkkür borcluyam.

Həmçinin Qoşulmama Hərəkatına sədrliyi son dərəcə müvəffəqiyyətlə həyata keçirirsiniz. Bu, BMT üçün çox önəmli bir təşkilatdır və onun sədri olmaq da xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan fəaliyyətinizə görə Sizə təşəkkür etmək məqsədilə gəldim.

BMT Baş Assambleyasının bir türk sədri olaraq da Azərbaycana gəlmək mənim üçün xüsusi bir xoşbəxtlik və qürur mənbəyidir. Bəhs etdiyiniz bütün məsələləri həqiqətən Nyu-Yorkdan diqqətlə izləyirik.

# "Media haqqında" qanun layihəsi üzərində iş yekunlaşır



**Əhməd İsmayılov,**
Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru

**"Media haqqında" qanun layihəsi üzərində iş yekunlaşmaq üzrədir. Bu barədə mətbuata açıqlamasında Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru, qanun layihəsinin hazırlanması ilə bağlı yaradılan İşçi Qrupunun üzvü Əhməd İsmayılov deyib.**

Ə. İsmayılov bildirib ki, qanun layihəsində media registrinin yaradılması da nəzərdə tutulur.

"Media haqqında" qanun layihəsində media registrinin formalaşdırılması, jurnalistlərin peşə bacarıqlarının artırılması, informasiyanın məzmununa dair tələblərin müəyyən olunması kimi normativ müddəalar nəzərdə tutulmaqdadır. Əhməd İsmayılov bildirib. Ə. İsmayılov hazırda İş qrupunda bu məsələlərin müzakirəsinin aparıldığını söyləyib: "Media registri elektron xidmətlərin göstərilməsi, media subyektlərinə dövlət tərəfindən göstərilən xidmətlərin asanlaşdırılması, ümumən Azərbaycanda media sahəsində ümumi sistemin formalaşdırılması üçün nəzərdə tutulur. Belə bir registrin formalaşdırılması gələcəkdə jurnalistlərə güzəşt, digər sosial tədbirlərin jurnalistlərə tətbiq olunması üçün daha səmərəli bir vasitə ola bilər".

# Ukraynada "vətəndaş müharibəsi" başlaya bilər

**Donbasda situasiya fövqəladə şəkildə qeyri-stabildir. Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.**

Onun sözlərinə görə, Ukraynanın davranışı və situasiyanın inkişaf dinamikası genişmiqyaslı döyüş fəaliyyətlərinin və "vətəndaş müharibəsi"nin yenilənməsi təhlükəsini yaradır. Peskov Ukraynada vətəndaş müharibəsinin Rusiyaya təhdid olduğunu da vurğulayıb. Ekspertlərin fikrincə,



Rusiya Donbas separatçılarını birbaşa dəstəklədiyini və orada hərbçiləri olduğunu etiraf etmədiyi üçün bunu "vətəndaş müharibəsi" adlandırmağa meyillidir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Donbasda durum Qarabağdan xeyli fərqlidir"

**"Həftə içi" əməkdaşı bu günlərdə vəziyyətin yenidən gərginləşdiyi Ukraynadakı Donbas regionundakı son durum, Putinin genişmiqyaslı hücum üçün əmr vermək ehtimalı, ABŞ və NATO ölkələrinin buna münasibəti, eləcə də Qarabağ və Donbas problemlərindəki bəzi fərqli cəhətlər barədə Ukraynadakı Azərbaycan diasporunun tanınmış simalarından olan Ali Radanın hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi, eyni zamanda Elm və Təhsil nazirinin müşaviri Elxan Nuriyevlə söhbət edib.**



**Elxan Nuriyev,**
Radanın məsləhətçisi, nazir müşaviri

***- Elxan bəy, bu günlərdə Ukraynanın Donbas regionunda - separatçı hərbi qüvvələrlə təmas xəttinə yaxın məntəqələrdə olmusunuz. Durum necədir?***

- Bəli, biz bu günlərdə Ukrayna Zabitlər Birliyinin xətti ilə separatçıların nəzarət etdiyi ərazilərə yaxın məntəqələrdə görüşlər keçirdik, rəhbər şəxslər və adi vətəndaşlarla söhbətlərimiz oldu. Gərginlik daim var. Mütəmadi olaraq hər iki tərəfdən hərbi və ya mülki vətəndaşlar arasında həlak olanlar da olur...

Mövcud vəziyyəti təhlil etdikdən sonra bizim qorxduğumuz əsas ondandır ki, Rusiya "KQB"-Putin təcrübəsindən çıxış edərək Ukraynanın nəzarətində olmayan şəhərlərdən birində bir xəstəxana və ya məktəbdə terror aktı, partlayış törədərək dezinformasiya yayarlar ki, bunu Ukrayna diversantları təşkil edib. Hücum üçün saxta bəhanə əldə edərlər...

Bildiyiniz kimi, dünən - aprelin 8-də Ukrayna Prezidenti Vladimir Zelenski təmas xəttində yaranan yeni gərginlikdən sonra Donbasa səfər edib. Orada xidmət edən hərbçilərlə görüşüb və onları mükafatlandırıb. Bu da bir daha göstərir ki, Ukrayna dövləti hər şeyə hazır durumda olaraq öz ordusunun arxasında da dayanıb....

***- Bəs belə bir gərgin geo-siyasi vəziyyətdə Prezident V. Zelenski Ukrayna dövləti üçün kifayət qədər beynəlxalq müdafiə xətti qura bilibmi?***

- Hesab edirəm ki, belə bir müdafiə artıq qurulub. ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Cek Sullivan dəfələrlə Ukrayna ilə əlaqə saxlayıb. Müdafiə naziri Lloyd Ostin və Dövlət Katibinin köməkçisi Entoni Blinken də mütəmadi olaraq ölkədəki vəziyyətlə maraqlanırlar. Yeri gəlmişkən, deyim ki, E.Blinkenin yəhudiəsilli babası Kiyev vilayətində yaşayıb...

Ən çox da ABŞ-ın Bütün Qoşun Birləşmələrinin Baş Qərargahlar Komitəsinin rəhbəri Mark Milli Ukrayna və Rusiyadakı həmkarları ilə əlaqə saxlayır. O, qəti xəbərdarlıq edir ki, əgər belə bir müharibə başlayarsa, ABŞ mütləq buna müdaxilə edəcək. Bu, azad dünyaya, azad Avropaya qarşı açılmış savaş kimi anlaşılacaq. Bununla paralel bu yaxınlarda Polşa, Latviya və Litva xarici işlər nazirlikləri səviyyəsində bəyanat yaydılar ki, Ukraynaya olan hücum həmin dövlətlərin milli təhlükəsizliyinə təsir edə bilər. Həmin səbəbdən onlar bu məsələyə dövlətlərinin milli təhlükəsizlik məsələsi kimi baxırlar...

Bir sözlə, ABŞ və Avropanın əksəriyyəti, o cümlədən NATO ölkələri, demək olar ki, birmənalı olaraq Ukraynanın yanındadır. Bu günlərdə Prezident Zelenski birbaşa bəyanat verdi ki, bizim məqsədimiz NATO-ya üzv olmaqdır. Təbii ki, həm ölkədəki qanunçuluq, həm də ordu göstəriciləri baxımından NATO-nun standartlarına uyğun olmaq gərəkdir. İlkin məsələ NATO-nun çətiri altına girməkdir. Sorğular da onu göstərir ki, vətəndaşların 70 faizi Ukraynanın NATO-ya daxil olmasının tərəfdarıdır. Yəni rəsmi Kiyev bütün obyektiv və subyektiv əngəllərə baxmayaraq, bu quruma üzv olmaq üçün əlindən gələni edəcək. İnanmıram ki, Moskva da əlini-qolunu sallayıb öz sərhədlərində NATO qoşunlarının yerləşməsinə biganə qalsın...

***- "Nyu-York -Tayms"ın bu günlərdə Pentaqon mənbələrinə isttinadla yaydığı məlumata görə, Rusiya Ukrayna sərhəddinə cənubda, şərqdə və şimalda 4 minə yaxın qoşun toplayıb. Aprelin 4-də Krımın işğalında iştirak etniş "Pskov desantçıları" deyilən diviziyanın bəzi hissələri də Simferopola gətirilib. Xarkov yaxınlığına da qoşunlar toplanıb. Və s. Sizcə, genişmiqyaslı Rusiya-Ukrayna savaşının başlanması ehtimalı nə qədərdir?***

- Bilirsiniz, əvvəllər də Rusiya Donbasdakı hərbi əməliyyatlarda iştirak edirdi. Onda bu, gizli, qeyri-leqal edilirdisə, indi artıq Moskva, az qala, birbaşa deyir ki, bu, bizim daxili işimizdir. Bu günlərdə Putinin mətbuat katibi Dmitri Peskov bəyan etdi ki, Rusiya öz ərazisində qoşunlarının yerini necə lazım bilirsə, elə də dəyişir və bunun üçün heç kəsdən icazə istəmək fikrində deyil. Görünən fakt odur ki, bugünədək Rusiyanın, ən azı, 28 operativ-taktiki batalyonu cənubda Krımdan tutmuş, şimalda Çerniqov vilayətinədək aypara şəklində Ukraynanı əhatəyə alıb. Eyni zamanda aprelin 8-də Peskovun müavini də bəyan etdi ki, əgər Ukrayna Donbasda Serebrenitsadakı kimi soyqırım törətməyə cəhd etsə, Rusiya da öz vətəndaş və soydaşlarını müdafiə etməyə məcbur olacaq...

***- Axı Rusiya deyir ki, qoşunlarını həmin ərazilərə guya təlimlər keçirmək adı iə yerləşdirib?..***

- Təbii ki, Kreml texnoloqları buna müxtəlif adlar qoyacaq, müxtəlif bəhanələr gətirəcəklər. Bu sadəcə, şantaj da ola bilər. Hər halda hesab edirəm ki, yaxın müddətdə genişmiqyaslı müharibə gözlənilmir. Düzdür, Rusiya lokal səviyyədə hansısa əraziləri güclü artileriya, yaxud aviasiya zərbələrinə məruz qoya bilər. Ordunun dövlət sərhədini keçəcəyi halda, yəni Rusiya Ordusunun genişmiqyaslı hücum edəcəyi təqdirdə Ukrayna quru qoşunları buna çox ciddi müqavimət göstərəcək. Ukrayna ordusu 2014-cü ildəki ordu deyil, son 7 il ərzində dəfələrlə güclənib. Onu da deyim ki, Rusiya tərəfi Donbasda münaqişə başlanandan hərbi baxımdan Ukraynadan dəfələrlə çox canlı itki verib. Təxmini olaraq 13-15 min rəqəmləri səslənir. Donbasda həlak olmuş mülki Ukrayna vətəndaşlarının sayı daha çoxdur... Eyni zamanda onu da vurğulamaq lazımdır ki, Qərbdən Ukraynaya hərbi yardımlar davam edir. Məsələn, aprelin 5-də NATO-nun 7 ölkəsinin təyyarələri Kiyev yaxınlığındakı hərbi aerodroma endi...

*"Ukrayna öz təşəbbüsü ilə müharibə başlatmaq fikrində deyil..."*

***- Sizcə, genişmiqyaslı savaş başlayacağı təqdirdə ABŞ-dan savayı konkret hansı ölkələr Ukraynanı, dolayı yox, birmənalı olaraq müdafiə edəcək?***

- Öncə qeyd etdiyim kimi, ABŞ və Avropa Ukraynaya hücumu azad dünyaya hücum kimi dəyərləndirəcək. Düzdür, Normand dördlüyünün üzvləri olan Almaniya və Fransa adətən, sadəcə, tərəfləri hərbi qarşıdurmadan yayınmağa çağırır, yəni Ukraynanı birbaşa dəstəkləmir. Bildiyiniz kimi, dünən - aprelin 8-də Almaniya kansleri Angela Merkelin Putinlə bu mövzudakı danışığı əvvəlkilərdən kifayət qədər sərt olub və demək olar ki, o, Rusiyadan öz qoşunlarını Ukrayna ilə sərhəddən geri çəkməyi tələb edib. Putin isə gileylənib ki, guya Ukrayna Donbasda genişmiqyaslı əməliyyat keçirməyə hazırlaşır və s. Amerikaya gəldikdə, Vaşinqton hələ Krım böhranından bəri rəsmi Kiyevi birmənalı olaraq dəstəkləyir və Rusiyaya qarşı çıxış edir... Real vəziyyət belədir. Hələlik Rusiya iqtidarı öz əhalisini genişmiqyaslı müharibə nəticəsində baş verəcək olay və itkilərə hazırlayır. 2020-ci ilin sentyabrınadək Ermənistan-Azərbaycan sərhədində, yaxud Qarabağda ara-sıra artilleriya zərbələri, snayper atəşləri və s. edilirdi, hazırda Rusiya-Ukrayna cəbhəsində də oxşar vəziyyətdir. Əməliyyatlar birbaşa açıq fazaya keçirilməyib...

***- Fəqət, bütün bunlara rəğmən Ukraynanın birinci Prezidenti Leonid Kravçuk da bu günlərdə "Qordon"a müsahibəsində dalana dirənmiş Putinin hər şeyə əl atacağını bildirib. Artıq bir sıra mənbələr ABŞ-ın "HIMARS" taktiki raketlərini bölgəyə gətirdiyini, Rusiyanın isə uzaqmənzilli raketlərini Krım və Donbas bölgələrinə nəql edə biləcəyini iddia edib. Siz necə düşünürsüz, Putin bu yaxınlarda Ukraynaya genişmiqyaslı hücum əmri verə bilərmi?***

- Bəli, hər şey gözləmək olar. Rusiyanın daxili durumu da çox gərgindir. Putin də bunu gözəl bilir. Bildiyniz kimi, aprelin 6-da Moskvada dollar kəskin bahalaşdı. Yəni bu da təbii ki, əhalinin iqtisadi-sosial durumunun daha da ağırlaşmasına gətirib çıxaracaq. Qərbin təzyiqləri, Navalnı məsələsi, sanksiyalar... Məsələn, son aylarda Rusiyanın ümumi daxili məhsulu 400-500 milyard dollar aşağı düşüb. Bir sözlə, ölkə daxilindəki problemləri kölgədə qoymaq, eyni zamanda sentyabrda Dövlət Dumasına seçkiləri nəzərə alaraq hakim partiyanın da müharibə ilə bağlı qərarı ola bilər. Öncə dediyim kimi, Kreml indidən ölkə əhalisi qarşısında veriləcək qurbanlara haqq qazandırmağa çalışır. Son aylar Rusiya telekanalları Ukraynaya qarşı nifrət təbliği ilə məşğuldur. Əhaliyə təlqin edilir ki, guya Kiyev Donbasdakı ruslara qarşı soyqırım həyata keçirməyə hazırlaşır, Ukraynanın Türkiyə ilə birgə istehsalına başladığı yeni nəsil dronları nümayiş etdirilir və s. Bir sözlə, hələki Putin Zelenskiyə qarşı əzələ nümayiş etdirir. Rusiyada müharibəyə faktiki güclü hazırlıq da gedir...

***- Bəs deyilənə görə, Ukrayna rəhbərliyi Azərbaycanın Qarabağdakı son uğurlu savaşından ruhlanaraq özü Donbasda antiterror əməliyyatı keçirmək istəyir. Zelenski belə bir riskə gedə bilərmi?***

- Yox... Ukrayna öz təşəbbüsü ilə müharibəyə başlamaq fikrində deyil. Yəni bilmək lazımdır ki, Ukrayna Azərbaycan deyil. Ötən ilin yayındakı Tovuz döyüşlərindən sonrakı Azərbaycandan fərqli olaraq Ukraynada yüz minə yaxın vətəndaş torpaqları azad etmək üçün meydanlara çıxıb müharibə çağırışı etmir... Bəzən hətta bunun əksi baş verir. Yəni insanlar müharibə əleyhinə də çağırışlar edirlər... Məsələn, Donbasla yanaşı, Krım da depressiv bölgə hesab edilir. Yəni bu regionlar dövlət dotasiyası ilə yaşayırlar. Sovet vaxtı, məsələn, Donbas daş kömür mədənləri ilə zəngin olduğundan gəlirli olub. Ancaq hazırda həm həcm, həm də keyfiyyət baxımından həmin mədənlər öz əhəmiyyətini itirib. Və odur ki, yenə də dövlətdən hardasa, 800 milyon dollara yaxın dotasiya alır. Oxşar vəziyyət Krımdadır. Krımın 80 faiz ərazisində yovşandan savayı heç nə bitmir... Yarımadanın böyük bir hissəsində dərin infrastruktur böhranı var. Krımda 70 faiz təsərrüfat suyu çatışmazlığı var, əkinlər, bağ-bağat quruyur. Odur ki, bizim üçün Qarabağ cənnətdirsə, ukrayınlar üçün Donbas, Krım cənnət deyil... Amma bütün hallarda Vətənin bir parçasıdır, dövlətin ərazisidir və sadəcə, ortalıqda "torpaqdan pay olmaz" prinsipi var. Ukrayna vətəndaşı da düşünür ki, Rusiyaya torpaq verdikcə iştahı daha da artacaq... Fəqət, yenə də bütövlükdə Ukrayna cəmiyyətində Donbasa, Krıma qarşı Azərbaycandakı Qarabağ sevgisi qədər bir sevgi, istək yoxdur... Putin özü də anlayır ki, bu gün Krım kimi Donbas da Rusiya üzərində ağır yükdür. Odur ki, nə etmək lazım olduğunu heç Rusiya özü də bilmir...

***- Elxan bəy, sizcə, Qarabağ məsələsi ilə Donbas probleminin başqa hansı fərqli cəhətləri var?***

- Bu günlərdə Donetsk vilayətinin icra strukturlarınım yerləşdiyi Kramotorskda da səfərdə olduq. Biz vaxtaşırı vilayətin rəhbər şəxsləri ilə görüşürük. Məsələn, mən bilirəm ki, Donetsk vilayət mədəniyyət şöbəsinin müdir müavini olan rus xanım hər həftənin 5-ci günü axşam separatçıların blok-postunu keçərək Donbasdakı evinə gedir və şənbə-bazar ailəsinin, övladlarının yanında olur. Bazar ertəsi səhər yenə də qayıdıb gəlir işə. Və deyir ki, mən milliyyətcə rus olsam da, ukrayın dilini bilirəm və 20 ildir ki, bu sahədə işləyirəm, heç kəs heç bir əsasla məni işdən azad edə bilməz. Sözüm ondadır ki, Ukrayna Donbasda Azərbaycanın Qarabağdakı ermənilərlə olduğu kimi, tamamilə yad və xəstə etnosla üz-üzə deyil... Donbasda yaşayan hər bir kəs özünü Ukrayna vətəndaşı hesab edir. Yaşlı insanlara, əlilliyi olanlara təqaüd verilir. Və s. Sadəcə, həmin insanlar Ukrayna qanunlarıyla yaşamaq istəmirlər... Bilirsiz, Rusiyanın istədiyi o idi ki, Donbasda öz sülhmətramlılarını yerləşdirsin, orada da 2014-cü ildə Krımda olduğu kimi, avtomat lülələri altında seçkilər keçirsin və separatçıları qanuni olaraq Ukrayna hakimiyyətində təmsil elətdirsin. Bu da alınmadı. Çünki Ukrayna buna getmədi və getməyəcək də... Rusiya isə Kiyevin dediyi şərtləri qəbul etmir... Amma Ukrayna dövləti və xalqı da bütün hallarda Moskvanın bu və ya digər diqtələrini qəbul etməyərək demokratik, azad quruculuq, inkişaf yoluyla getməyə çalşmaqda davam edəcək...

✍ ***Sultan Laçın***

## Müsahib



**Elşad Musayev,**
Bütöv Azərbaycan Partiyasının sədri

***44** günlük Vətən müharibəsindən sonra ölkənnin bugünkü gündəmi ictimai-siyasi təşkilatların qarşısında hansı vəzifələri qoyur? Hazırda bir çoxları bu sual ətrafında müzakirələr aparır. Müharibənin iki tərəfindən biri Ermənistanda yaşanan gərginliklər ölkəmizin 90-cı illərin əvvəllərindəki üzləşdiyi proseslərlə oxşarlıq təşkil edir. Azərbaycanda isə müharibədən sonra iqtidar-müxalifət münasibətləri yeni müstəviyə qədəm qoyub. Bu və ya digər məsələlərlə bağlı "Həftə İçi"nə müsahibə verən Bütöv Azərbaycan Partiyasının sədri Elşad Musayev maraqlı məqamlara diqqət çəkib.***

# İndi istənilən partiya təklifini hakimiyyətə çatdıra bilir

***- Hazırda işğaldan azad olunmuş və digər ərazilərimizdə tam nəzarətin təmin olunması və diplomatik yöndə atılan addımlar hansı rakursda inkişaf edir və bu prosesu necə dəyərləndirirsiniz?***

- Hesab edirəm ki, hazırda işğaldan azad olunmuş ərazilərimizdə tam nəzarətin bərpa olunması üçün ilk övbədə sərhəd məntəqələri tikilir, ordumuz möhkəmləndirilir, kommunikasiya xətləri çəkilir, əsgərlərimizin həmin postlarda yerləşməsi üçün lazım olan tikinti-quraşdırma işləri həyata keçirilir. Məlum olduğu kimi, atəşkəsin əldə olunması prosesində əsasən Azərbaycan, Rusiya, Ermənistan arasında danışıqlar gedir. Faktiki olaraq ATƏT-in Minsk qrupu arxa plana keçib. Ona görə də danışıqlarda mərkəzdə əsas Rusiya dayanır. Rusiyanın bölgədəki addımları narahatlıq doğuran məqamdır, bu, faktiki olaraq öz missiyalarından kənara çıxır. Bu mənada, Azərbaycan Rusiyaya öz missiyasını lazımi səviyyədə yerinə yetirməyi xatırlatmalıdır.

***- Şuşada qalıqları tapılan "İsgəndər M" raketi ilə bağlı araşdırmaların izi faktlara əsasən Rusiyaya gedib çıxır. Daim düşməni silahlandıran Rusiyanın bu gün ərazilərimizdəki "sülhməramlı" missiyası nə dərəcədə etibarlıdır?***

- Heç kəsə sirr deyil ki, Ermənistandan atılan raketlərin, eləcə də "İsgəndər M" raketi ilə bağlı izlər Rusiyaya gedib çıxır. Ermənistanı illərlə silahlandıran, o cümlədən "İsgəndər M" raketini ermənilərə verən Rusiyadır. Ona görə də Rusiya bu məsələni nə qədər sağa-sola çəksə də, silah Rusiya tərəfindən verilib.

Başqa bir məsələ isə bu raketin atılması nəticəsində dağıntının niyə az olması ilə bağlıdır. Hesab edirəm, bu, köhnə raket olub və silahın başlıqlarının gücü müasir dövrdə nəzərdə tutulan gücdə deyil. Ona görə də dağıntının miqyası nisbətən az olub. İstənilən halda bu, cinayətin miqyasını azaltmır.

Dediyim kimi, Rusiya sülhməramlıları faktiki olaraq burada öz missiyalarından kənar fəaliyyət göstərirlər. Əslində bu, işğalçı orududur. İstəsək də, istəməsək də artıq Rusiya ordusu Laçın dəhlizindən Azərbaycana daxil olmuşdu. Azərbaycan məcburiyyət qarşısında reallıqları götürqoy elədi. Rusiya ordusu ilə döyüşmək imkanımız yox idi. Belə bir razılıq əldə olundu ki, Rusiya burada sülhməramlı missiyasını həyata keçirsin. Rusiya isə faktiki olaraq burada işğalçılıq siyasəti həyata keçirir. Kreml Azərbaycan ərazilərində möhkəmlənmək istəyir. Baxmayaraq ki, öz əyalətlərində, vilayətlərində insanlar çox acınacaqlı vəziyyətdədirlər. Təqribən, 40 min kəndi, qəsəbəsi boşalıb. Rusiya isə bununla məşğul olmaq əvəzinə, işğalçılıq siyasəti apardığı üçün erməniləri Qarabağın dağlıq hissəsinə geri qaytarmaqla məşğuldur. Dövr, zaman dəyişib, Azərbaycan öz ərazilərində möhkəmlənəndən sonra ya 5 il ərzində, yaxud bu özbaşınalıqları davam edəcəksə, müddətin bitməsini gözləmədən Rusiyaya qarşı sərt təpki göstərəcək. Faktiki Azərbaycanın müxalif qüvvələri Rusiyanın "sülhməramlı" adı altında gələn işğalçı ordusunun buradan getməsini tələb edir.

***- Elşad bəy, siyasi düşərgəni hakimiyyətlə bir araya gətirən Vətən müharibəsindən sonra partiyaların bu istiqamətdəki hazırkı fəaliyyətini necə dəyərləndirirsiniz?***

- Vətən müharibəsində faktiki olaraq bütün siyasi təşkilatlar, müxalifət, hakimiyyət, cəmiyyət, media vahid mövqedən çıxış edirdi. Bizim beynəlxalq aləmdə təzyiqlərə dözməyimizin səbəblərindən biri də bu idi ki, Azərbaycan ərazi bütövlüyünü təmin etmək üçün vahid mövqedən çıxış etmişdi. İndi yararanan problemlərin həlli ilə bağlı hakimiyyətlə dil tapmaq olar. Əvvəllər belə idi ki, müəyyən kəslərdən başqa siyasi təşkilatlar Prezident Administrasiyasına sözlərini çatdıra bilmirdilər. İndi istənilən partiya öz tələb və təklifini hakimiyyətə çatdıra bilir. Ona görə də düşünürəm ki, bu istiqamətdə yenə də işləmək lazım gələcək.

> "Problemlərin həlli ilə bağlı hakimiyyətlə dil tapmaq olar

***- Müsavat başqanının dediyi kimi, siyasi partiyaların hakimiyyət nümayəndələri ilə azad olunmuş ərazilərə səfərləri necə siyasi oyun ola bilər və bu cür yanaşmalarda məqsəd nədir?***

- Hakimiyyətlə siyasi partiyaların işğaldan azad olunmuş ərazilərə səfərini siyasi oyun adlandıranlar qeyri-ciddi adamlardır. Siyasətdə, ümumiyyətlə həyatda uğursuz adamlar var ki, bunlar hər şeyi qara görür. İşğaldan azad olunmuş ərazilərə səfər məsələsini lağlağı mövzusuna çevirmək olmaz. İqtidar da, müxalifət də, cəmiyyətin bütöv kəsimi işğaldan azad olunmuş ərazilərimizə getməli, həqiqəti görməli və reallığı çatdırmalıdır.

***- İqtidar-müxalifət dialoqu hansı tempdə inkişaf edir?***

- Təxminən, 1 il bundan əvvəl "iqtidar-müxalifət" dialoqu ilə bağlı müəyyən yumşaldıcı xətt götürülüb. Hesab edirəm ki, Prezident Administrasiyasında Ədalət Vəliyevin rəhbərlik etdiyi şöbə bu sahədə uğurlu fəaliyyət göstərir. İqtidarla müxalifət arasında müəyyən qədər fəaliyyəti təmin etməyə çalışırlar. Faktiki olaraq siyasi təşkilatların əksəriyyəti ilə əlaqə qurmağa nail olublar. Bunlar danılmazdır və qeyd etmək lazımdır..

***- Elşad bəy, siyasi partiyaların ofis, qeydiyyat məsələsinin həlli ilə yanaşı daha hansı addımlara ehtiyac var?***

- Siyasi partiyaların ofis, qeydiyyat məsələsi ilə bağlı xeyli dərəcədə inkişafa nail olmuşuq. Faktiki olaraq qeydiyyat problemi olan partiya qalmayıb. Ofis məsələsinə gəlincə, partiyadan müraciət olunandan sonra, İqtisadiyyat Nazirliyinin Əmlak məsələlərinə baxan qurumu siyasi partiyalarla 1 illik icarə müqaviləsi bağladı. Təbii ki, bu da irəliyə doğru atılmış addımdır. Bəzi bədxahlar özlərinin ofisi olsa da, başqalarına bunu rəva görmür. Müsavat Partiyasından biri çıxıb deyir ki, bəs niyə partiyalara ofis verilməlidir?... Sual olunur: sizə niyə verilib: Eləcə də bir başqası olsun. Bu ofislər heç kəsin dədə malı deyil. Heç kəsin də mülkiyyətinə verilməyib. Sadəcə, icarəyə verilib.

***- Siyasi partiyaların öz daxili platformalarında beynəlxalq təsirlərə qarşı yönələn birgə əməkdaşlıq hansı səviyyədədir?***

- Hesab edirəm ki, müharibə dövründə siyasi partiyaların vahid mövqeyə gəlməsi, elə beynəlxalq təsirlərə qarşı yönələn ciddi addım idi. Eyni zamanda, biz bütün nüfuzlu beynəlxalq təşkilatların hamısına həm birlikdə, həm də ayrı-ayrı müraciət edib, Azərbaycan həqiqətlərini, bölgədə baş verən prosesləri dünyaya çatdırmağa çalışdıq. Yəni bu istiqamtdə xeyli döracədə iş görüldü.

***- Siyasi müxalifət bu gün müharibədən sonra əsgər, qazi və şəhid ailələrinin sosial problemlərinin həlli ilə bağlı hansı təkliflərlə çıxış edir və hansı nümunələr sərgiləyir?***

- Siyasi müxalifətin əlində elə bir səlahiyyət yoxdur ki, hansısa nümunə sərgiləsin. Siyasi partiyaların borcu, vəzifəsi problemi qaldırmaq və eyni zamanda təkliflər verməkdir. Hesab edirik ki, əsgər, qazi, şəhid ailələrinin sosial problemləri ən yüksək səviyyədə həll olunmalıdır. Eyni zamanda qeyd edim ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etməlidir ki, daha çox yardım ayırmağa imkanı çatsın. Azərbaycanın büdcəsinin genişlənməsinə mane olan, ziyanla işləyən iri şirkətlərin rəhbərləri məsuliyyətə cəlb olunub araşdırılmalıdır. Bizim büdcəmiz sosial təbəqələrə yardımların edilməsi üçün kifayət deyildir. Ona görə də düşünürəm, iqtisadiyyatımızı ciddi inkişaf etdirməliyik. Bu sahədə də islahatlara ehtiyac var. Bu gün mühüm vəzifələrə müəyyən gənc kadrlar gətirilsə də, siyasi partiyalarla, cəmiyyətlə məslehətləşmələrə ehtiyac var...

✍ Tahirə Qafarlı

# Hikmət Hacıyev Oralovla görüşdü



**Qazaxıstanın informasiya və ictimai inkişaf nazirinin müavini Asxat Oralov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.**

Qazaxıstanın Azərbaycandakı səfirliyindən hafta.az-a verilən məlumata görə, görüş zamanı tərəflər iki ölkənin KİV sahəsində əməkdaşlığı məsələlərini müzakirə ediblər. A.Oralov Nur-Sultan şəhərindəki Media mərkəzinin işi, yeni "Turkistan" televiziya kanalının işə salınması və bu sahədə digər layihələr haqqında ətraflı danışıb. Tərəflər türk dövlətlərinin tarixi, mədəniyyəti və müasir həyatı ilə tanışlıq məqsədilə beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Görüş Türk Şurasına üzv ölkələrin informasiya və media sahəsindəki dövlət qurumlarının rəhbərlərinin konfransı çərçivəsində baş tutub.

# İran niyə Xəzər konvensiyasını təsdiqləmir



**Konvensiyanın İran hökuməti və xalqı, eləcə də qonşuları üçün böyük əhəmiyyəti nəzərə alınaraq, onun təsdiqləməsi heç bir vəchlə qeyri-adi deyil və proses davam edir**

***Bu günlərdə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov, Qazaxıstanın XİN başçısı Muxtar Tleuberdi ilə görüşdən sonra keçirdiyi birgə mətbuat konfransında 2018-ci il avqustun 12-də Aktauda imzalanmış Xəzərin statusuna dair müqavilədən söz açıb.***

Deyib ki, Rusiya İranın Xəzərin hüquqi statusu ilə bağlı 2018-ci ildə imzalanan Konvensiyanı tezliklə ratifikasiya edəcəyini gözləyir.

Nazir bildirib ki, Rusiya İranda Xəzərin hüquqi statusu ilə bağlı ratifikasiya prosedurunun ən qısa vaxtda bitməsini gözləyir. "Üç il öncə Aktauda imzalanan vacib Konvensiya bundan sonra qüvvəyə minəcək və Xəzər dənizində əməkdaşlığımızın özülünü möhkəmləndirəcək", - Lavrov əlavə edib. Maraqlıdır, az qala üç ildir ki, sahilyanı beş dövlətin prezidenti tərəfindən imzalanmış sazişi İran Məclisi niyə təsdiqləmir?

■ **İranın ölkəmizdəki Səfirliyindən Hafta az-a verilən məlumatda deyilir ki, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya beynəlxalq mahiyyətli sənəd olaraq İran İslam Respublikasında qanuni təsdiqləmə müddətini keçməlidir. Qeyd olunan təsdiqləmə prosesi isə hazırda davam edir.**

"Qeyd edək ki, beynəlxalq konvensiyaların və müqavilələrin təsdiqlənməsi özlüyündə uzunmüddətli prosesdir və bir çox ölkələrdə olduğu kimi, bu müddət də İranda vaxt aparır. Buna görə də "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nın İran hökuməti və xalqı, eləcə də qonşuları üçün böyük əhəmiyyəti nəzərə alınaraq, onun təsdiqlənməsi heç bir vəchlə qeyri-adi deyil və proses davam edir", - İran səfirliyinin açıqlamasında deyilir.

Qeyd edək ki, 2018-ci il avqust ayının 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Sənədə Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imza atıb. Ötən müddətdə sözügedən sənəd Azərbaycan, Rusiya, Qazaxıstan və türkmənistan parlamentləri tərəfindən ratifikasiya olunsa da, geridə buraxdığımız üç il ərzində İran Məclisi hələ də konvensiyanı təsdiqləməyib.

✍ Vüsal Tağıbəyli

# Fransa mətbuatı Qarabağda erməni vəhşiliyindən yazır...

**Bəzi ölkələr işğal olunmuş ərazilərin təbii ehtiyatlarından son dərəcə bəhrələnib, digərləri isə buna laqeyd qalaraq onu yalnız hərbi işğal kimi qəbul ediblər. Təəssüf ki, Qarabağın Ermənistan tərəfindən 27 il işğalı dövründə sadalanan ssenarilər baş verib: işğal altındakı ərazilərdəki şəhərlər, oranın təbiəti, mədəni və tarixi obyektləri Ermənistan tərəfindən dağıdılıb və viran edilib. Bölgənin inkişafı üçün konkret heç bir iş görülməyib və bu işğal sayəsində Ermənistan iqtisadi cəhətdən inkişaf da edə bilməyib.**




Bu fikirlər Fransanın "Mondeafrique" portalında dərc olunan "Ermənistanın işğalı altında Qarabağ mədəniyyətinin məhv edilməsi" sərlövhəli məqalədə yer alıb. Yazıda 1992-ci ilə qədər azərbaycanlıların yaşadığı bu bölgənin Ermənistan tərəfindən işğal edilməsindən ötən 27 il ərzində bölgədəki tarixi və mədəniyyət abidələrinin məhv olunmasından söz açılıb.

Bildirilib ki, işğal dövründə Ağdam kabus şəhərə çevrilib, buradakı bütün tarixi və mədəni irs nümunələri, eləcə də şəxsi evlər və binaların yerlə-yeksan edilib. Vurğulanıb ki, işğal dövründə Ağdamda 571 mədəniyyət abidəsi, o cümlədən 286 kitabxana, 237 ev və klub, 19 muzey, 24 musiqi məktəbi, 1 kinoteatr, 2 teatr və 2 qalereya binası darmadağın edilib.

Diqqətə çatdırılıb ki, rayonda olan 67 məsciddən yalnız biri pis vəziyyətdə olsa da qalıb. Ermənilər bu məsciddən nəzarət postu kimi istifadə etdikləri üçün onu tam dağıtmayıblar. Digər məscidlər isə tamamilə məhv edilib. Rayondakı körpülər, Zərdüşt ibadətgahları, Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kəndlərindəki məscidlər, Horadiz kəndində 2 məscid, Cəbrayıl rayonunun Süleymanlı və Papı kəndlərindəki məscidlər, Qubadlı rayonundakı Mamer və Yusifbəyli kəndlərindəki, həmçinin Zəngilandakı məscidlər yerlə-yeksan edilib. Ağdam şəhərindəki Pənahəli xan (XIX əsr) və Mehdiqulu xan türbələrinə, abidələrə ciddi ziyan dəyib. XIX əsr tarixi abidəsi olan İbrahimxəlil xanın türbəsi isə yer üzündən tamamilə silinib. Vurğulanıb ki, işğal dövründə erməni silahlı qüvvələrinin İslam mədəni irsini hədəfə aldığı aydın görünür. Həmçinin qeyd olunub ki, işğal altındakı ərazilərdə qanunsuz arxeoloji qazıntılar aparılıb. Qafqaz Albaniyasına məxsus bir çox abidələrin, eləcə də Xudavəng və Gəncəsər monastırlarının da ermani silahlı qüvvələri tərəfindən vandalizmə məruz qaldığı bildirilib.

Müəllif yazıb ki, regionun mədəni irsinə qarşı Ermənistan tərəfindən törədilən vandalizm aktlarının beynəlxalq sənədlərin, xüsusilə də "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası", "Arxeoloji irsin qorunmasına dair Avropa Konvensiyası" və "Dünya mədəni və təbii irsinin qorunmasına dair Konvensiya"ların kobud şəkildə pozulmasıdır. Azərbaycanın meşə ehtiyatlarının 54 min hektarı erməni və ermənipərəst qüvvələr tərəfindən məhv edilib. Müharibə dövründə də ermənilərin Azərbaycan mədəni irsinə maksimum zərər verməyə çalışıb, evləri yandırıblar.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanın azad edilmiş ərazilərdə bərpa işlərinə başlanıb. Bildirilib ki, aeroportların, yolların tikintisi, ümumiyyətlə, azad olunmuş ərazilərdə infrastrukturun yaradılması bir milyona yaxın azərbaycanlı məcburi köçkünün doğma yurduna qayıtmasına imkan yaradacaq.

# "Türk investorlarını Qarabağa yönəltmək üçün çalışırıq"

***"Azərbaycanın işğaldan azad edilmiş ərazilərində insan və investisiya axınının olacağı gözlənilir". Bunu "Report"a Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının (DEİK) Türkiyə-Azərbaycan İş Şurasının sədri Selçuk Akat deyib.***

S.Akat bildirib ki, həmin ərazilərdə insan və investisiya axını müharibə nəticəsində dağılmış ərazilərin bərpa edilməsindən, məskunlaşma və iqtisadi fəaliyyət üçün lazımi infrastruktur yaradılmasından, həmin ərazilərin müasir Azərbaycan şəhərləri ilə eyni səviyyəyə çatdırılmasından sonra reallaşacaq: "Bu istiqamətdə türk investorlarını Qarabağa yönəltmək üçün çalışırıq". O deyib ki, Azərbaycanın Milli Ordusu uzun illər Ermənistanın işğal altında saxladığı torpaqlarını geri qaytarıb:

"Qafqazdakı yeni siyasi reallıq Türkiyə ilə Azərbaycanın 4,5 milyard ABŞ dolları dəyərində olan ticarət dövriyyəsinin həcmini asanlıqla 15 milyard ABŞ dolları səviyyəsinə çatdırmasına şərait yaradacaq. Belə ki, Azərbaycanla Türkiyə ticarət dövriyyəsini bu həddə çatdırılması ilə bağlı qarşılarına əsas hədəf olaraq qoyub". S.Akatın sözlərinə görə, türk podratçıları Azərbaycanda bu günə qədər 15 milyard ABŞ dolları dəyərində 436 layihəni uğurla tamamlayıblar: "Türk şirkətləri işğaldan azad edilmiş ərazilərdə avtomobil yolları və hava limanının inşası ilə bağlı işlərə başlayıb. Bununla yanaşı, özəl banklardan biri Qarabağda şöbə açacağını elan edib". O vurğulayıb ki, Qarabağ yeraltı və yerüstü sərvətləri ilə zəngindir: "Faydalı qazıntı yataqlarının istismarı üçün sərmayələr qoyaraq, mənbələrdən ən səmərəli şəkildə bəhrələnmək ölkənin və bölgənin iqtisadiyyatına töhfə verə bilər". "Həmçinin Qarabağ yüksək turizm potensialına sahibdir.

Yeraltı və yerüstü mənbələri və su ehtiyatları ilə zəngin bölgədir. Bu isə turizm üçün yeni imkalar açır", - deyə S.Akat bildirib. Xatırladaq ki, indiyə qədər Türkiyə Azərbaycan iqtisadiyyatına 13 milyard ABŞ dolları, Azərbaycan isə Türkiyə iqtisadiyyatına 19 milyard ABŞ dolları məbləğində investisiya qoyub.

# Xaricdə təhsil adı ilə aldadılanlar

## Layihə

***Təhsildə Keyfiyyət Təminatı Agentliyi mart ayı üçün tanınma üzrə müraciətlərin statistikasını açıqlayıb. Agentlikdən hafta.az-a verilən məlumata görə, ötən ay üzrə 205 müraciətçinin 150-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilmiş, 55 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 29, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 21, qeyri-ənənəvi təhsil formasında təhsil alması səbəbi ilə 2, akkreditasiyası olmayan ali təhsil müəssisəsində təhsil alması səbəbi ilə 1 və ixtisasın ekvivalentliyi olmaması səbəbindən 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.***

İxtisas seçimlərində iqtisadiyyat üzrə 31, hüquqşünaslıq üzrə 26, maliyyə üzrə 32, tibb üzrə 19, biznesin idarə edilməsi üzrə 17, menecment üzrə 15, mühəndislik üzrə 13, təhsil elmləri üzrə 11, beynəlxalq münasibətlər üzrə 9, kompüter elmləri üzrə 8 və digər ixtisaslar üzrə 24 nəfər müraciətçi qeydə alınıb.Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 67, Türkiyədən 54, Rusiyadan 42, Gürcüstandan 16, Çin Xalq Respublikasından 6, digər ölkələrdən isə 20 müraciətin olduğu müşahidə olunur.

*- Dağıstan Dövlət Universiteti;*
*- Cənubi Rusiya Humanitar İnstitutu;*
*- Sankt Peterburq Xarici İqtisadi Əlaqələr və Hüquq İnstitutu;*
*- Rusiya Dövlət Sosial Universiteti.*

*Yalnız aşağıda adları qeyd edilən və Azərbaycan Respublikası ərazisində filialları lisenziyalı fəaliyyət göstərən xarici ali təhsil müəssisələri tərəfindən verilən diplomlar üzrə əldə edilən ixtisaslar ölkəmizdə tanınır:*
*- Moskva Dövlət Açıq Universiteti (19.11.-2007-ci il - 01.09.2010-cu illər ərzində);*
*- Moskva Əmək və Sosial Münasibətlər Akademiyası (1999-2005-ci illər ərzində);*
*- V.Lomonosov adına Moskva Dövlət Universiteti (27.02.2009-cu ildən etibarən);*
*- İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti (15.05.2015-ci ildən etibarən).*

Bundan başqa, Agentlik tərəfindən 2017-ci ildən etibarən verilən imtinaların 25 faizi ümumilikdə 10 ali təhsil müəssisəsini əhatə edir. Diplomlarına imtina verilən universitetlər Regionlararası Heyətin İdarəolunması Akademiyası, Simon Kuznets adına Xarkov Milli İqtisad Universiteti, İvanovo Dövlət Universiteti, Ukrayna Dövlət Dəmiryol Nəqliyyatı Akademiyası, V.N.Karazin adına Xarkov Milli Universiteti, Dağıstan Dövlət Pedaqoji Universiteti, Poltava İqtisadiyyat və Ticarət Universiteti, Tbilisi Açıq Tədris Universiteti, Avropa Universiteti və Gürcüstan Texniki Universitetidir. Bu təhsil müəssisələri üzrə 851 imtina qeydə alınıb.

Əslində Təhsil Nazirliyi mütəmadi olaraq Azərbaycanda fəaliyyət göstərən və xarici universitetlərə tələbə qəbulu həyata keçirən şirkətlərlə heç bir əməkdaşlığının olmadığına dair məlumatlar yayır. Lakin buna baxmayaraq, təhsil şirkətləri bəzən Təhsil Nazirliyinin adından sui-istifadə edir və vətəndaşları həmin universitetlərin sənədinin ölkəmizdə tanındığına inandıraraq Azərbaycandan tələbə qəbulu davam etdirirlər. Bu universitetlərdə təhsilini başa vuran məzunlar isə diplomlarının saxta olduğunu ən sonda, ali təhsil haqqında sənədin tanınması üçün müraciət edib rədd cavabı aldıqda anlayırlar. Nəticədə vətəndaşın həm pulu, həm də zamanı boşa getmiş olur.



**Diplomu tanınmayan gənclər bəzi təhsil şirkətlərinin kommersiya maraqlarının qurbanına çevrilirlər**

> *Diplomu tanınmayan xarici universitetlərlə bağlı xeyli maarifləndirmə işləri aparılmalıdır*

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov da bildirib ki, Təhsil Nazirliyi cəmiyyəti bu barədə mütəmadi olaraq məlumatlandırır:** "Amma buna baxmayaraq Azərbaycandan hər il yüzlərlə gənc Ukrayna, Gürcüstan və Dağıstandakı ali təhsil müəssisələrinə müraciət edir. Belə demək olar ki, Azərbaycanda gənclər öz gəncliyini mənasız yerə sərf edirlər. Düşünürəm ki, diplomu tanınmayan xarici universitetlərlə bağlı xeyli maarifləndirmə işləri aparılmalıdır. Uşaqların çoxu təhsil şirkətlərinin qurbanına çevrilir. Məsələn, bəzən tələbələri diplomu tanınmayan xarici universitetlərlə əlaqələndirən təhsil şirkətləri televiziyalarda özlərini reklam edirlər. Televiziyalar belə təhsil şirkətləri ilə bağlı ehtiyatlı olmalıdırlar. Çünki həmin təhsil şirkətlərinin vasitəsilə Ukraynada, Gürcüstanda, Dağıstanda və digər xarici ölkələrdə təhsil alanlar sonda lazımsız sənədə sahib olurlar. Bu gün məhkəmələrdə nə qədər belə işlər var ki, həmin universitetlərin məzunları diplomlarının tanınması üçün çalışırlar". Onun sözlərinə görə, hazırda Təhsildə Keyfiyyət Təminatı Agentliyi şəffaf şəkildə fəaliyyət göstərir və saxta diplomlu şəxslərin əmək bazarına daxil olmasının qarşısını alır: "Saxta diplomlu şəxslərin ölkəmizə heç bir faydası yoxdur. Əmək bazarında bu gün diplomlu, amma ixtisası üzrə savadlı kadrlara ehtiyac var. Ona görə də gənclər də bu məqamı nəzərə almalı, savadsız diplomun əhəmiyyətsiz olduğunu anlamalıdırlar. Bu istiqamətdə Təhsil Nazirliyi çox maarifləndirmə işi aparsa da, belə şirkətlər fəaliyyətlərini davam etdirirlər. Onlar hüququ şəxs kimi qeydiyyata düşərək tələbə qəbulunda həmin universitetlərə köməklik göstərirlər. Nəticədə özləri də xidmət haqqı alırlar. Ona görə də bu cür şirkətlərlə hüquq mühafizə orqanlarının da işləməsi vacibdir".



**İlqar Orucov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Kamran Əsədov deyib ki, bu gün Azərbaycandan xaricə kütləvi şəkildə insanlar təhsil almağa gedirlər və bu da nəticədə xoşagəlməz situasiyalara səbəb olur:** "Konkret rəqəmləri desək ki, bu günləri Azərbaycandan kənarda təkcə qardaş Türkiyədə 20 min, Ukraynada 9 min, Gürcüstanda 3 min təhsil alır. Ümumiyyətlə, qeyd edim ki, 45 minə yaxın azərbaycanlı gənc dünya ölkələrində öz vəsaitləri hesabına təhsil alırlar. Bu da ölkədən kənara böyük həcmdə vəsaitin getməsinə, eyni zamanda beyin axınının getməsinə gətirib çıxarır. Nəticədə gənc işçi qüvvəsini itiririk. Onlar da bəzən xarici ölkələrdə müəyyən siyasi, yeni təsirlərə məruz qalırlar. Digər problem isə onlar qayıdıb gələndən sonra yaşanır. Ən böyük problemlərdən biri məhz həmin şəxslərin diplomlarının tanınması ilə bağlıdır. Qeyd edim ki, diplomların tanınmamasının əsas səbəbi həmin universitetlərin fəaliyyət göstərdiyi ölkədə lisenziyalarının olmamasıdır, yəni onların rəsmi fəaliyyət icazələri yoxdur. Bunu da tələbələr bilmirlər. Çox təəssüf ki, Azərbaycanda bir sıra xarici ölkələrdə təhsil xidmətini göstərən şirkətlər özlərinin kommersiya maraqlarına görə həmin tələbələri univeristetlərə qəbula alırlar. Təbii ki, bu çox ciddi bir problemdir. Məsələn, Ukraynanın bir sıra universitetləri var ki, onların filialları Gürcüstandadır və onlar distant təhsil verə bilirlər.

Azərbaycan qanunvericiliyi distant təhsili tanımır. Azərbaycanlı gənclər də məhz Gürcüstanda oxumaq adıyla həmin Ukraynanın filiallarına gedirlər. Sonda da məlum olur ki, bu universitetlərin lisenziyası yoxdur. Ancaq bunu yalnız 4 ildən sonra bilirlər. Nəticədə 4-5 il vaxt itirir, hər il də kifayət qədər vəsait xərcləyir və qayıdıb gəldikdə artıq diplom tanınma problemi olur. Bu problemin aradan qalxması üçün hər bir kəs xarici ölkəyə getməmişdən əvvəl həmin şəxslər vahid portalda həmin universitetin, həmin ölkə ərazisində fəaliyyət icazəsinə malik olub-olmamasını yoxlamalıdırlar. Ondan sonra həmin ölkəyə getməlidir ki, qayıdıb gələndə bu problemi yaşamasın. Valideynlər və abituriyentlər mütləq hansısa xarici təhsil şirkətinə müraciət edəndə son dərəcədə diqqətli olsunlar. Araşdırsınlar və mütəxəssislərə müraciət etsinlər. Təəssüflər olsun ki, Azərbaycan gəncləri kimlərinsə kommersiya və pul maraqlarının qurbanına çevrilir. Son nəticədə də məhz bu problem ucbatından diplomlarının tanınmasından imtina edilir".

### Yeri gəlmişkən...

**Təhsildə Keyfiyyət Təminatı Agentliyinə müraciət edən vətəndaşlar arasında xarici ali təhsil müəssisələrinin lisenziyasız fəaliyyət göstərən Bakı filiallarında təhsil alan 385 müraciətçinin diplomları üzrə əldə olunan ixtisasları ölkə ərazisində tanınmayıb.**

Bu müraciətlərin əhəmiyyətli hissəsi adları aşağıda qeyd olunan Rusiya Federasiyasının Azərbaycan ərazisində filialları fəaliyyət göstərən ali təhsil müəssisələrinə məxsusdur:

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

## XƏBƏRİNİZ OLSUN...



■ Dünya şöhrətli İtaliya rəssamı Mikelancelo Merisi de Karavacconun itmiş hesab edilən əsəri İspaniyada tapılıb. İlkin dəyəri 1500 Avro qiymətləndirilən əsərin 17-ci əsr ispan rəssamlarından Jusepe de Riberaya aid olduğu düşünülsə də sonradan onun Karavacconun fırçasından çıxdığı iddia edilib. Tablonun Karavaccoya məxsus olduğu təsdiqlənərsə, onun dəyəri 150 milyon Avroya qədər yüksələcək.

---

■ Xalq artisti, rejissor Eldar Quliyev yenidən xəstəxanaya yerləşdirilib. Səhhəti pisləşən Xalq artisti bir neçə gün əvvəl "MediClub" klinikasına yerləşdirilib. Hazırda onun müalicəsi reanimasiyada davam etdirilir.

---

■ 2021-ci ildən İcbari Tibbi Sığorta yığımlarının tətbiqinə başlanıb. 1-ci rübdə daxilolmalar 112,3 milyon manatdan çox olub (nəzərdə tutulandan 25,5 mln. manat artıq). Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

---

■ ABŞ Prezidenti Co Bayden ölkənin hərbi büdcəsini 7 milyard dollar azaltmaq niyyətindədir. Bu barədə "Bloomberg" agentliyi yazır. Qeyd olunur ki, bu qərar Demokrat partiyasının nümayəndələri ilə müzakirələrdən sonra qəbul edilib.

---



■ İran sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiqinə başlayır. Sabahdan etibarən İranda həyati və zəruri sahələr istisna olmaqla bütün iş yerləri bağlanılır. Bu barədə İranda Koronavirusa Qarşı Mübarizə Mərkəzinin mətbuat katibi Əlirza Rəisi açıqlama verib.

---

■ Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası II Elizabetin həyat yoldaşı, Edinburq Hersoqu Şahzadə Filip vəfat edib. Bu barədə Kral ailəsi məlumat yayıb. Əlavə edək ki, Şahzadə Filip 99 yaşında dünyasını dəyişib.

---

■ ABŞ hərbi gəmilərini gələn həftə Qara dənizə göndərəcək. ABŞ iki hərbi gəmisinin İstanbul boğazından Qara dənizə çıxışı üçün Türkiyəni məlumatlandırıb.

---



■ Rusiya Prezidenti Vladimir Putinlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı baş tutub. Tərəflər "Sputnik V" peyvəndinin tədarükü və mümkün birgə istehsalı da daxil olmaqla koronavirusla mübarizə məsələlərini müzakirə ediblər.

---

■ Poverliftinq idman növü üzrə ölkə çempionu Vaqif İbrahimov koronavirusdan vəfat edib. İdmançı 42 yaşında dünyasını dəyişib. Dəfələrlə Azərbaycan çempionu olmuş mərhum həm də respublika rekordçusu idi.




# ASAN könüllüləri tərəfindən "Dostluq" turniri keçiriləcək

***"ASAN Könüllülük" Məktəbinin və "Qarabağ" futbol klubunun birgə əməkdaşlığı ilə "Dostluq" turniri keçiriləcək.***

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən hafta.az-a bildiriblər ki, turnir Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun əziz xatirəsinə həsr olunacaq. Belə ki, aprelin 22-də futbol klubunun oyunçusu və baş məşqçisi kimi fəaliyyət göstərmiş, ərazi bütövlüyümüzün müdafiəsi uğrunda şəhid olmuş, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun anadan olmasının 75-ci ili tamam olur. Gənclərin diqqətinin bu əlamətdar təqvim gününə cəlb edilməsi, Milli Qəhrəmanımızın əziz xatirəsinin anılması və könüllülər arasında təbliği məqsədilə ASAN könüllüləri tərəfindən aprelin 12-dən 22-dək "Dostluq" turniri təşkil olunacaq. Turnir çərçivəsində 12 qurumun könüllülərindən ibarət komandalar yarışacaq.

# Şəhid bacısı "Azəriqaz"da işlə təmin edilib

**Şəhid bacısı "Azəriqaz" İstehsalat Birliyində işlə təmin olunub. İB-dən hafta.az-a bildirilib ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə canından keçərək qanı ilə tarix yazan igidlərimizdən biri də Rauf İbadovdur.**



Raufun atası, "Azəriqaz" İB-nin əməkdaşı Məhərrəm İbadov deyir ki, oğlu Füzuli, Cəbrayıl, Laçın dəhlizi istiqamətində gedən əməliyyatlarda böyük şücaət göstərib. Oktyabrın 23-ü Laçın dəhlizi uğrunda gedən döyüşlərdə mühasirəyə düşərək şəhidlik zirvəsinə ucalıb. "Azəriqaz" İstehsalat Birliyinin Baş direktoru Ruslan Əliyev şəhid ailəsini ziyarət edərkən onların qayğıları ilə maraqlanıb, müraciətlərinə mütləq baxılacağına söz verib. Qısa müddət ərzində şəhid R.İbadovun bacısı Banu İbadova "Azəriqaz" İB-də işlə təmin olunub.

Qeyd edək ki, şəhid ailəsi Abşeron rayonunun Saray qəsəbəsində yaşayır. Şəhid R.İbadovun bacısı B.İbadova Bakı Regional Qazın Satışı Departamentində mühəndis vəzifəsində əmək fəaliyyətini davam etdirəcək.



# "Azərsu" ASC-də qanvermə aksiyası

**İrsi qan xəstəliklərindən əziyyət çəkən xəstələrə yardım etmək və cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etmək məqsədilə "Azərsu" ASC-də qanvermə aksiyası keçirilib.**

ASC-dən hafta.az-a bildirilib ki, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı yoxlanılıb və sağlamlığı qan götürməyə imkan verən şəxslər müəyyənləşdirilib. Qanvermə aksiyasında "Azərsu" ASC-nin idarə və müəssisələrində çalışan əməkdaşlar fəal iştirak ediblər. Donorlar irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş olduğunu diqqətə çatdırıblar. Milli Hematologiya və Transfuziologiya Mərkəzinin mütəxəssisləri bildiriblər ki, götürülən qan nümunələri laboratoriyada hərtərəfli müayinə edildikdən sonra onlardan talassemiyalı, hemofiliyalı və digər irsi qan xəstələrinin müalicəsində istifadə olunacaq.

## Araşdırma

# "Azərlotereya"da yeni dönəm

**Cəmiyyətin xarici şirkətin idarəetməsinə verilməsindən gözləntilər nədən ibarətdir?**

***Məlum olduğu kimi, bir müddət əvvəl ölkə Prezidenti tərəfindən "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" sərəncam imzalanıb. Sərəncama əsasən, "Azərlotereya" ASC Türkiyə Respublikasının "Demirören Şans Oyunları Yatırımları A.Ş." şirkətinin törəmə cəmiyyəti olan "YMT Sans B.V." şirkətinə müqavilə əsasında idarəetməyə verilib. Sözügedən sərəncamın icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin təsisçisi olduğu "Azərlotereya" ASC-nin "Demirören Şans Oyunları Yatırımları A.Ş." şirkətinin törəmə müəssisəsi olan "YMT Sans B.V." şirkətinə idarəetməyə verilməsi ilə bağlı müqavilə də imzalanıb.***



Rəşad Həsənov,
iqtisadçı ekspert




Bəs, görəsən, "Azərlotereya" ASC-nin türk şirkətinə icarəyə verilməsi hansı dəyişikliklərə səbəb olacaq? Yeni idarəetmədən gözləntilər nədən ibarətdir?

Əvvəlcə ondan başlayaq ki, "Azərlotereya" 2002-ci ildə ölkədə lotereya fəaliyyətini təkmilləşdirmək, vətəndaşların hüquqlarının və qanunu mənafelərinin qorunmasını ardıcıl təmin etmək, lotereyanın keçirilməsindən dövlət büdcəsinə daxilolmaları artırmaq və lotereya fəaliyyəti sahəsində dövlət nəzarətini daha da gücləndirmək məqsədi ilə yaradılıb. 2020-ci ilin yanvarın 1-nə "Azərlotereya"nın aktivləri 16,6 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 38 faiz çoxdur.

Hesabat dövründə şirkətin öhdəlikləri 66,4 faiz artaraq 8,5 milyon manata, balans kapitalı isə 17 faiz artaraq 8,1 milyon manata, o cümlədən nizamnamə kapitalı 10 dəfə artaraq 200 min manata çatıb. ASC 2019-cu ili 5,6 milyon manat xalis mənfəətlə başa vurub. Bu, 2018-ci ilə nisbətən 73,5 faiz çoxdur. Amma türk şirkətinə idarəetməyə verilən "Azərlotereya" ötən illərdə büdcə köçürmələrini tam icra etməyib. Belə ki, Hesablama Palatası büdcə rəylərində xüsusi vurğulayırdı ki, şirkət mənfəəti olmasına baxmayaraq büdcəyə proqnozlaşdırılan dividendini tam həcmdə ödəmir. Məsələn, 2014-də ümumiyyətlə ödəməyib. 2015-2019-cu illərdə isə 8.4 mln. manat proqnozlaşdırılıb, amma cəmi 3.5 milyon manat ödəyib. Müqayisə üçün deyək ki, Türkiyənin Milli Piyango İdarəsinin 2019-cu ilə üzrə hesabatına görə, şirkət satışdan əldə etdiyi ümumi gəlirdən uduş fondu xərcləndikdən sonra yerdə qalan 1.744 mlrd. lirənin 1.438 mlrd. lirəsini və ya 82,5%-ni müxtəlif vergilər (ƏDV, mənfəət, dividend, şans oyunları vergisi və s.) formasında Xəzinəyə köçürüb.

### Yeni idarəedici - "YMT Sans B.V." şirkəti

**Məlumat üçün bildirək ki, "Demirören Holding" Türkiyənin konqlomerat şirkətidir. Energetika, daşınmaz əmlak, tikinti, təhsil, liman, media sektoru, reklam, turizm, lotereya oyunlarının təşkili və rəqəmsal texnologiyalar sahələrini özündə birləşdirir.** Şirkətlər qrupu, həmçinin Türkiyənin ən aparıcı lotereya oyunlarının təşkini həyata keçirir. İtalyanın məşhur oyun operatoru "Sisal SpA" ilə ortaq təşəbbüs quran "Demirören Holding" 2019-cu ildə Türkiyənin milli lotereyası "Milli Piyango"nun yaxın on il üçün əməliyyat hüquqlarını əldə edib. Holdinq ən müasir beynəlxalq oyun texnologiyalarının idxalı ilə məşğuldur.

"Demirören Holding", həmçinin Türkiyənin ən böyük media qruplarından birinin sahibidir. Media qrupa CNN-Türk, Kanal D kimi məşhur televiziya və radio kanalları, Milliyyət, Hürriyyət, Vətən, Posta və s. qəzetlər daxildir. Beləliklə, Türkiyənin məşhur şirkətinin "Azərlotereya"nın idarəçiliyinə cəlb edilməsi ölkəmizdə oyun sənayesini inkişaf etdirmək üçün investisiya və yeni texnologiya cəlb etməyə imkan verəcək. Bu, dünya təcrübəsində mövcud olan ən yaxşı modellərin, oyun sistemlərinin, satış, cəlbetmə və stimullaşdırma mexanizmlərinin tətbiqinə imkan verəcək. İnvestisiyalar holdinqin Niderlanddan olan "Ymt Sans B.V." törəmə şirkəti vasitəsilə həyata keçiriləcək.

> "Əksər hallarda biz dövlət şirkətlərinin səmərəsiz fəaliyyət göstərdiyini müşahidə edirik

Proqnozlara görə, cəmiyyətin fəaliyyətinin yenidən təşkili iqtisadi səmərənin artmasına gətirəcək, dövlət lotereyaların təşkilindən maksimal divident əldə edəcək, büdcə gəlirləri əhəmiyyətli şəkildə artacaq, eyni zamanda, ölkədə müasir lotereya tipli oyun sənayesi inkişaf edəcək.

Lotereya sistemi potensial imkanlarını daha yaxşı bir şəkildə realizə edəcək, yeni satış sistemləri, həmçinin, yeni iş yerlərinin yaranmasına səbəb olacaq. Əlavə distribüter şəbəkələri, xidmət terminalları əlavə multiplikativ effekt yaradacaq. Bütün bunlar bu sahədə "qara bazar"ın da sıxılmasına gətirəcək, vətəndaşları leqal oyunlara cəlb edəcək.

Qeyd edilməlidir ki, xarici investor qismində məşhur Türkiyə holdinqinin seçilməsi də təsadüfi deyil. "Demirören Holding", həmçinin Azərbaycan iqtisadiyyatının enerji sektorunda təmsil olunur və Azərbaycan bazarı ilə yaxından tanışdır. Yeni idarəedici şirkətin fəaliyyəti özünü doğruldacağı halda müqavilə müddətinin daha 5 il uzadılması mümkündür.

### Risk yükü aşağı düşə bilər

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı ekspert Rəşad Həsənov deyir ki, dövlət müəssisələrinin müasir tələblərə cavab verən şəkildə idarə edilməsi zəruridir:** "Əksər hallarda biz dövlət şirkətlərinin səmərəsiz fəaliyyət göstərdiyini müşahidə edirik. Əslində bu qurumlar dövlətin gəlirlərinin formalaşmasında birbaşa iştirak etməlidirlər.

"Azərlotereya"dan da gözləntilərin yüksək olmasına baxmayaraq dövlət büdcəsinə qatqısı çox zəifdir. Burada əsas problem məhz idarəetmədən qaynaqlanır. Ümumiyyətlə, dövlət müəssisələri özəl sektorla müqayisədə daha zəif inkişaf edir. Bu məsələyə subyektivlik faktoru çox ciddi təsi göstərir. Korrupsiyalaşma, vəsaitlərin qeyri-səmərəsiz istifadə edilməsi geniş yayılıb. Ona görə də burada idarəetmənin müxtəlif modellərinin tətbiq edilməsi yolu ilə hansısa formada bu qurumların fəaliyyətinin şəffaflaşdırılmasına zərurət yaranır. Düzdür, əminliklə deyə bilmərəm ki, bu qurumun Türkiyə şirkətinin idarəetməsinə verilməsi mövcud problemləri tam olaraq həll edəcəkdir. Ən azından dövlət-özəl əməkdaşlığı istiqamətində formalaşmış model kimi gələcəkdə öz töhfəsini verə bilər. Bu müəssisələr müəyyən şərtlər daxilində idarəetməyə verilir. Özəl sektor həmin müəssisələri idarə edərkən özünün spesifik maraqları olduğu üçün şirkətin gəlirliliyi, mənfəətinin təmin edilməsində daha çox maraqlı olur. Eyni zamanda, burada dövlət də öz üzərinə düşən öhdəliklərin əhəmiyyətli hissəsini qarşı tərəfə, yeni idarədiciyə ötürür. Beləliklə, dövlət rahat şəkildə gəlirlə bağlı proqnozlaşdırma apara bilir.

Qeyd etdiyim kimi, bu müəssisələr müəyyən şərtlər daxilində özəl şirkətlərə idarəetməyə ötürüldüyündən, dövlət zərərlərə də məsuliyyət daşımır. Dolayısı ilə dövlət üzərində formalaşmış risk yükü əhəmiyyətli səviyyədə aşağı düşür, müəssisələr daha səmərəli fəaliyyət göstərir və bu yolla onun gəlirliliyinin təmin edilməsi istiqamətindəki təbii iqtisadi əsaslar da təmin olunur".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov isə deyib ki, Türkiyə lotereya oyunlarının təşkili və yeni məhsulların bazara çıxarılması baxımından təcrübəyə malik olan ölkələrdən biridir. "Bu baxımdan Türkiyə ilə əməkdaşlıq həm də Azərbaycanda bu sahənin inkişafı baxımından vacib hesab olunur. Bu, bir tərəfdən lotereya bazarına inamın artmasına imkan verəcək. Bu isə yeni sərmayənin cəlb edilməsi baxımından vacibdir. Digər tərəfdən isə fərqli məhsulların bazara çıxarılması, təqdim olunması, bazarda istehlakçıların sayının artırılması və istehlakçı-sahibkar münasibətlərinin tənzimlənməsi baxımından önəmlidir".

✍ Sevinc

***"Tam əminliklə deyə bilərəm ki, məcburi köçkünlərin böyük əksəriyyəti vaxtilə özlərinin və ya valideyinlərinin yaşadıqları şəhərlərə və kəndlərə qayıtmağa hazırdır",- Qaçqın və Köçkünlərin işi üzrə Dövlət Komitəsinin rəhbəri Rövşən Rzayev haqqin.az-a müsahibəsində belə deyib.***



Rövşən Rzayev,
Qaçqın və Köçkünlərin işi üzrə Dövlət Komitəsinin rəhbəri

# "Dövlət azad olunmuş torpaqlarda kimin hansı mülkiyyəti olduğunu bilir"

O bildirib ki, prezidentin sərəncamına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə infrastrukturun və mənzil fondunun bərpası üçün işlər tam gücü ilə davam edir. Bu işə böyük həcmdə vəsaitlər ayrılıb, xüsusi qərargah yaradılıb və həmin qərargah bütün bu irimiqyaslı işləri nizamlayır. "Həmin kateqoriyadan olan vətəndaşlar arasında o cümlədən bizim komitə tərəfindən aparılan sosioloji rəy soğruları isə göstərir ki, onların əksəriyyəti əcdadlarının yaşadıqları torpaqlara geri qayıdacaqlarına ümidlərini heç vaxt üzməyiblər. Və mən inanıram ki, onların arzuları yerinə yetiriləcək və hər birinə o torpaqlarda layiqli həyat şəraiti yaradılacaq",-Rövşən Rzayev belə deyib. Bəlli olduğu kimi işğaldan azad edilmiş şəhər və kəndlərin böyük əksəriyyəti viranəlikdən ibarətdir, düşmən bu yaşayış məntəqələrini yer üzündən silib. Bununla belə bəzi şəhər və kəndlər var ki, orada evlər salamatdır. Bəs onillər keçəndən sonra azad edilmiş ərazilərdəki bu və ya digər evin sahibləri öz mülkiyyət hüquqlarını necə təmin edəcəklər? Bunun üçün sənədləri hara təqdim etmək lazımdır?

> "Mənzillər isə digər dövlət strukturlarının balansına veriləcək"

"Qaçqınkom" rəhbəri bildirib ki, komitənin elektron məlumat bazasında məcburi köçkünlər və onların ailə üzvləri barədə bütün informasiyalar var. Həmin informasiyalar müvafiq rayonların icra hakimiyyətlərində də toplanıb.

"Biz müntəzəm olaraq əlimizdə olan informasiyaları yoxlayırıq. Ona görə də dövlət bilir ki, azad olunmuş torpaqlarda kimin hansı mülkiyyəti olub. Yeni məcburi köçkünlərin qoyub gəldikləri mülkiyyətlə bağlı problem yaranmalı deyil. Amma məcburi köçkünlərin mülkiyyət hüquqlarının bərpası bu günün, ola bilsin sabahın məsələsi deyil. Böyük qayıdış proqramının həyata keçirilməsi üçün vaxt lazımdır. Amma bu hökmən baş verəcək",-R.Rzayev qeyd edib. O, azərbaycanlıların Xankəndinə, Xocalıya və hazırda Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan digər ərazilərə qayıtmasının "zaman məsələsi" olduğunu bildirib. Deyib ki, bu istiqamətdə böyük və ciddi iş aparılır. R.Rzayev onu da deyib ki, hazırda "Qaçqınkom"un balansında ölkə rəhbərliyinin sərəncamları ilə inşa edilmiş 115 qəsəbə var. Məcburi köçkünlər həmin qəsəbələrdə müvafiq müqavilələr əsasında yaşayırlar, müqavilələrdə bütün şərtlər göstərilib.

Qeyd olunub ki, bunlar dövlət tərəfindən verilmiş müvəqqəti yaşayış sahələridir və məcburi köçkünlərin öz torpaqlarına qayıtmasından sonra həmin müqavilələr qüvvəsini itirəcək. Mənzillər isə digər dövlət strukturlarının balansına veriləcək. "Hesab edirəm ki, həmin mənzil fondunun taleyini dövlət özü həll edəcək", - o bildirib.

# Ölkədən nağd xarici valyutanın çıxarılması xəbərinə rəsmi cavab

***Ötən gün bəzi kütləvi informasiya vasitələrində Hesablama Palatasının 2020-ci il üzrə fəaliyyətinə dair hesabatına istinadən 7 bank vasitəsilə ölkədən nağd xarici valyutanın çıxarılması prosesində Hava Nəqliyyatında Baş Gömrük İdarəsində aparılmış yoxlamalar çərçivəsində gömrük inzibatçılığı sahəsində natamamlıqların olduğu barədə məlumatlar yayımlanıb.***

Dövlət Gömrük Komitəsindən hafta.az-a bildirilib ki, bu iddialar tamamilə əsassızdır və gömrük orqanları qanunvericiliyə uyğun olaraq üzərilərinə düşən vəzifələri tam yerinə yetiriblər: "Hüquqi şəxs olan rezidentlər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına köçürülməsi və nağd şəkildə gətirilməsi, habelə Azərbaycan Respublikasından köçürülməsi və nağd şəkildə çıxarılması Azərbaycan Respublikasının "Valyuta tənzimi haqqında" Qanununun 8.3 maddəsinə uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya bankları tərəfindən təqribən 1.1 milyard manat ekvivalentində nağd xarici valyuta vəsaitlərinin ölkədən kənara çıxarılması rəsmi qaydada və qanunvericiliyin tələblərinə müvafiq olaraq həyata keçirilib, bütün ixrac faktları üzrə gömrük bəyannamələri mövcuddur.

Azərbaycan Respublikası Mərkəzi Bankının da təsdiq etdiyi kimi bu növ əməliyyatlar bankların xarici banklardakı müxbir hesablarına mədaxil edilməsi (müxbir hesabın möhkəmləndirilməsi) məqsədini daşımışdır. Belə ki, yerli kommersiya bankları xarici müxbir banklardakı hesablarının tələb olunan qalıq həcmini (cash collateral) təmin etməsə öz müştərilərinin idxal əməliyyatları üzrə ödəniş tapşırıqlarını, o cümlədən sənədli əməliyyatlar üzrə tranzaksiyalarını yerinə yetirə bilməzlər.Yəni, kommersiya banklarının xarici müxbir banklardakı öz hesablarına nağd vəsait aparması normal bank fəaliyyəti praktikasına və milli qanunvericiliyə tamamilə uyğundur.

Aparılan nağd vəsaitin xaricdəki müxbir hesaba mədaxil olunmasına "gömrük nəzarəti" barədə kütləvi informasiya vasitələrində yayılan fikrə dair bildiririk ki, Dövlət Gömrük Komitəsinin ölkəmizdən ixrac edilən hər hansı malın, o cümlədən nağd valyuta vəsaitin təyinat ünvanına çatıb-çatmaması nəzarət etmək kimi funksiyası və öhdəliyi yoxdur.

Nağd vəsaitin xaricə göndərilməsi halında isə kommersiya banklarının bu ixrac əməliyyatları onların balansında mütləq əks olunur və nağd vəsaitlərin balans hərəkətinə nəzarət aidiyyatı qurumun funksiyalarına aiddir".

## Aktual

# Ərzaq məhsulları bahalaşıb

***Son günlər ölkədəki bir sıra market və mağazalarda məhsulların qiymətində artım müşahidə olunur. Xüsusən də çay, yağ, makoron kimi təməl ehtiyac qidalarında bu tendensiya daha da hissediləndir. Hafta.az-ın əməkdaşı məsələni araşdırmaq üçün tanınmış mağazalardan alış-veriş edən müştərilər arasında sorğu apardı.***




Öncə bir məqamı diqqətinizə çatdıraq ki, müştərilər qiymətlərdən narazılıq etdilər. Kimisi yağın-çayın bahalaşdığını, kimisi də ümumiyyətlə, qeyri-qida məhsullarının qiymət artımına məruz qaldığını bildirdi. Mağaza əməkdaşları isə belə halın baş verməyini, qiymətlərdə artım olmadığını söyləsələr də, vətəndaşlar fərqli fikirdədirlər.

■ **Evinə ərzaq bazarlığı edən müştəri Almaz xanım söylədi ki, qida məhsullarında bahalaşma ötən ildən başlayıb: "Bahalaşan təkcə ərzaq deyil. Ötən aylarda 5 manata aldığım göz dərmanını bu gün eyni yerdən 13 manata almışam.**

Pensiyaçı qadınam, dövlət məbləği bir qədər artıran kimi, qiymətlər qalxır. Çay, yağ, qənd, ət, yumurta - hamısı bahalaşıb. Hansı birini sayım?".

■ **Digər müştəri Dilbər xanım narazılığını bu sözlərlə ifadə etdi: "Son vaxtlar bahalaşma var, özü də hər bir məhsulda... Paltardan tutmuş, kosmetik vasitələrədək. Kremlərin, saç boyalarının qiymətləri qalxıb.** Girmişəm mağazaya, guya yuyucu tozlar endirimdədir. Hər birinin üstünə yalançı (fantastik) qiymətlər etiketləyib, deyirlər ki, guya endirimə salmışıq. Ərzaq məhsullarından qiyməti ən çox artan yağlardır; həm duru, həm də səhər yeməyi üçün aldığım yağlar xeyli bahalaşıb. Uşaqla marketə gəlirəmsə, gərək ona da nəsə alam. Şokoladlar və peçenyelərdə də qiymət artımı hiss etdim".

> "Bu gün logistika qiymət əmələgəlmə prosesində mühüm əhəmiyyət kəsb edir

Bəs görəsən, marketlərdə bahalaşmaya səbəb nədir? Süni qiymət artımının qarşısını almaq üçün nə etmək lazımdır? Strateji məhsulların qiymətlərini dövlət özü müəyyənləşdirməlidirmi? Bu, bazar iqtisadiyyatına hansı təsirini göstərir?

Yaranmış suallara aydınlıq gətirmək və məsələyə iqtisadi cəhətdən yanaşmaq üçün mütəxəssisə müraciət etdik.

■ **İqtisadçı-ekspert Fuad İbrahimov bildirdi ki, qiymət artımına ilkin səbəb hər zaman sağlam rəqabətin olmamasından qaynaqlanır. Bundan başqa, idxal amili, ölkəmizdə dizel yanacağının bahalaşması və s. kimi amillər də qiymətlərə təsir göstərir:** "Bəzi ekspertlər çıxışlarında təkidlə dizelin qiymətinin bahalaşmaya gətiribçıxarmayacağını söyləsələr də, bunlar bir qədər absurd görünür. Bu gün logistika qiymət əmələgəlmə prosesində mühüm əhəmiyyət kəsb edir. Məhsulları idxal edən sahibkarlar öz gəlirlərini sığortalamaq məqsədilə qiymətləri bir qədər artırmış olurlar. Bütün bu sadalananlar qiymətlərin artıb-azalmasına təsir göstərir".

"Dövlət strateji məhsulların qiymət həddini müəyyənləşdirməlidirmi?" - məsələsinə gəldikdə F.İbrahimovun sözlərinə görə, bazar münasibətlərində, gərək, belə hallara yol verilməsin. Zərurət yarandığı təqdirdə, bu sistemin tətbiqi qaçılmazdır: "Əgər bazarda inhisarçılıq halları müəyyən dərəcədən yüksəkdirsə, bu vəziyyət vətəndaşların istehlak səbətinə zərər vurursa, yaxşı olardı ki, dövlət strateji məhsulların qiymətini sabit saxlamaqla bağlı tədbirlər görsün.

Təbii ki, bu addımlar bazar iqtisadiyyatına müdaxilə hesab olunur. Yaxşı olardı ki, müvafiq qurumlar məsələ ilə bağlı genişmiqyaslı araşdırma aparıb, ardınca lazımi qərar qəbul etsin". Adətən, artan qiymət tendensiyası bayram günlərində müşahidə olunsa da, görünən odur ki, bu mərasimlər bitsə də, bahalaşma hələ də davam edir. Ümid edirik ki, ərzaq məhsullarının qiymətində vətəndaşları narahat edən məqamlar tezliklə aradan qaldırılacaq.

✍ Banu

Din

# Pandemiya dövründə ikinci Ramazan bayramı

***Bir neçə gün sonra - 14 aprel Azərbaycanda müqəddəs Ramazan ayı başlayır. Qafqaz Müsəlmanlar İdarəsindən verilən məlumata görə, Azərbaycanda Ramazan ayının ilk günü aprelin 13-nə düşəcək. Qeyd olunub ki, bu barədə məlumat Azərbaycan Astrofizika Rəsədxanasından verilib. QMİ-dən bildirilib ki, bəzi ölkələrdə Ramazan ayı aprelin 14-də, çox ölkələrdə isə 13-də başlayacaq.***



Bu da o deməkdir ki, artıq 1 ildir dünyanı cənginə alan koronavirus pandemiyasında keçirəcəyimiz ikinci Ramazanı qarşılamağa hazırlaşırıq.

Bəs görəsən bu günlərdə ən çox nələrə diqqət etmək lazımdır? Virusa yoluxmuş şəxsin oruc tutması nə dərəcədə doğrudur? Oruc tutan şəxs peyvənd etdirə bilərmi? Hafta.az-ın əməkdaşı bu mövzuda yaranmış sualları mütəxəssisə ünvanladı.

■ **Həmsöhbətimiz Heydər məscidinin axundu ilahiyyatçı Hacı Rüfət Qarayev oldu. Onun sözlərinə görə İslamın təmizliklə bağlı şərtləri var. Təbii ki pandemiyadan əvvəl də bütün insanlıq üçün buyurulub ki, "təmizlik imandandır".** Yəni pandemiyaya görə tez-tez əlləri yumaq, gigiyenaya fikir vermək lazımdırsa bu müsəlmanlar üçün hər dövrdə keçərlidir. Bu baxımdan koronavirusla bağlı da qoyulan qızıl qaydalardan biri sayılan təmizlik islamda əsas vəzifələrindən hesab olunur. İlahiyyatçı bildirdi ki, müsəlmanlar üçün pandemiya dövründə oruc tutmaqla bağlı heç bir qadağa yoxdur. Hətta, öncədən peyvənd etdirmiş yaxud da oruclu ikən vaksinasiya olunan adamlar da rahatlıqla oruclarına davam edə bilərlər:

"Oruclu olduğu halda iynə vurdurmağın da qəbahət yoxdur. Şəriyyətimizə görə oruclu şəxs iynə vurdura bilər.

> "*Yoluxucu xəstəliklərdən qorunmaq üçün edilən bütün tədbirlər ramazan ayında müsəlmanların ibadətinə təsir etmir*"



Hacı Rüfət Qarayev, Heydər məscidinin axundu ilahiyyatçı

Hətta zəruri hallarda qidalandırıcı iynələrdən də istifadə edilə bilər. Yoluxucu xəstəliklərdən qorunmaq üçün edilən bütün tədbirlər ramazan ayında müsəlmanların ibadətinə təsir etmir. Sosial məsafə və digər qaydalar isə, bütün vaxtlarda keçərlidir". Həmsöhbətimiz Ramazan ayı boyunca tərkibində spirt olan antibakterial maddələrdən istifadə edib-etməmək məsələsinə də toxundu. Onun fikrincə, belə vasitələrdən istifadə etmək olar.

Lakin, bir şərtlə... Belə ki, burada məqsəd sadəcə həmin vasitələrin boğaza getməməsinə diqqət etməkdir. Buruna və əllərə vurulan ətirlərin iyindən çəkinmək lazımdır. Bunlar orucu pozan amillər sayılmasalar da, bəyənilmir. R.Qarayev bir məqamı da vurğuladı ki, virusa yoluxmuş şəxs həkim icazə verdiyi təqdirdə, müalicə davam edərkən oruc tuta bilər. Təbii ki burada da müəyyən məqamlara diqqət etmək lazımdır:

"Bu artıq həkimlərin biləcəyi məsələdir. Əgər həkim tövsiyyə edərsə ki, oruc tutmaq müalicə prosesinə və xəstənin səhhətinə mənfi təsir göstərməz bu zaman oruc tutmaq üçün də problem olmaz. Ola bilsin həkim deyər ki, oruc tutmaq xəstənin səhhəti üçün daha yaxşıdır.

Yaxud da əksini bildirsin. Həkim icazə verərsə xəstə dərmanları gün boyu deyil, sahur və ya iftar vaxtı qəbul edə bilər. Lakin bir dasha qeyd edim ki, gün boyu iynə vurmaqla bağlı heç bir problem yoxdur". Mütəxəssislər isə bu günlərdə əvvəllər qurulan qalabalıq bayram süfrələrindən çəkinməyə dəvət edir.

Xüsusən də, virusun mutasiyaya uğramış növlərinin yayıldığı zamanda qapalı məkanlarda çox adamın iştirakı ilə ediləcək iftar süfrələri insan həyatı üçün təhlükəlidir. Xatırladaq ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, mayın 13-14-ü Ramazan bayramı ilə əlaqədar ölkədə qeyri-iş günləridir.

■ **Aprelin 9-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qazılar Şurasının növbəti iclası keçirilib.**

İdarənin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə onlayn formatda keçirilən iclasda Ramazan ayının başlanması ilə əlaqədar Fətva müzakirə olunub.

İclasda Qafqaz Müsəlmanları İdarəsinin sorğusuna cavab olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının direktoru, AMEA-nın müxbir üzvü Namiq Cəlilovun imzası ilə Şeyxülislam Allahşükür Paşazadənin ünvanına daxil olan məktubun mətni oxunub.

Məktubda deyilir: "Məlumat üçün bildirmək istərdik ki, Sizə təqdim olunmuş 1442-1443-cü hicri-qəməri (2021-ci il miladi) təqvim layihəsində tərəfimizdən təkrar aparılmış araşdırma nəticəsində Azərbaycan ərazisində təzə Ayın (hilalın) görünməsi 13 aprel tarixində baş verdiyindən Ramazan ayının 1-i 14 aprel 2021-ci il tarixindən başlaması təsdiqlənib. Odur ki, 14 aprel 2021-ci il tarixini Ramazan ayının birinci günü kimi qəbul etməniz ali diqqətinizə çatdırıram".

Allah oruclarınızı qəbul etsin, bayramınız mübarək!

✍ **Banu**

Sosial

# "Ümid" qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzil verilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Qaradağ rayonunun "Ümid" qəsəbəsində şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə 30 mənzil təqdim edilib. Nazirlikdən hafta.az-a verilən məlumata görə, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov iştirak ediblər.***



S.Babayev vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində möhtəşəm Zəfər əldə edən Azərbaycanda şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri də geniş miqyas alıb.

Xüsusilə bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Nazir son üç ildə təqdim edilən mənzil və fərdi evlərin sayında ciddi artımı diqqətə çatdırıb. Bildirib ki, 2018-ci ildə 626 ədəd, 2019-cu ildə bundan 50% çox olmaqla 934 ədəd, 2020-ci ildə əvvəlki ilə nisbətən 70%-ə qədər çox, yəni 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə verilib.

Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamının bu istiqamətdə mühüm irəliləyişlərə imkan yaratdığını diqqətə çatdıran S.Babayev Sərəncamla 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev veriləcəyini deyib. Qeyd edib ki, həmin kateqoriyadan olan həm 2014-2019-cu illərdə uçota alınmış şəxslər, həm də 2020-ci ildə hərbi əməliyyatlarda (o cümlədən Vətən müharibəsində) şəhid olanların ailələri və müharibə əlilləri yaxın beş ildə mənzil və fərdi evlə təmin olunacaq.

Nazir bildirib ki, 2021-ci ildə 3 minədək mənzil və fərdi ev verilməklə, bu il mənzil və fərdi evlə təminat proqramı 2018-ci ilə nisbətən 5 dəfəyə yaxın genişlənəcək. Prezident İlham Əliyevin tapşırığı ilə keçmiş köçkünlər üçün tikilmiş mənzillər də şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilir. Hazırda "Ümid" qəsəbəsindəki yaşayış binalarından təqdim edilən 30 mənzil də daxil olmaqla 2021-ci ilin planı üzrə artıq 230 mənzil verilib. Ümumilikdə isə indiyədək 9430 mənzil və fərdi ev verilib.

Müharibə əlillərinin minik avtomobilləri ilə təminatından bəhs edən S.Babayev 2018-ci ildə 265 ədəd, 2019-cu ildə 600 ədəd, 2020-ci ildə 400, ümumilikdə indiyədək 7200-dən çox avtomobilin müharibə əlillərinə verildiyini, bu tədbirlərin də davam edəcəyini diqqətə çatdırıb. O, dövlət başçısının göstərişi ilə müharibədən sonrakı dövrdə şəhid ailələri, müharibə iştirakçıları və əlilləri, erməni terrorundan zərər çəkənlərlə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketi barədə məlumat verib.

Yeni mənzillə təmin olunanlar Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibənin əlilləri, Aprel döyüşləri iştirakçısı, habelə İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələridir. Şəhid ailəsi üzvləri və müharibə əlilləri tarixi Zəfərimizlə sonsuz qürur hissi keçirdiklərini vurğulayıblar. Onlar sosial təminatlarının gücləndirilməsi, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlərdən razılıqla bəhs ediblər.

Göstərilən yüksək diqqət və qayğıya, yeni mənzillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Ədliyyə işçiləri ağacəkmə aksiyasına qoşulublar



**Prezident İlham Əliyevin ətraf mühitin mühafizəsi, yeni yaşıllıq sahələrinin salınması ilə bağlı tapşırıqlarına uyğun olaraq ardıcıl tədbirlər görülür, bu məqsədlə ənənəvi olaraq ağacəkmə aksiyaları keçirilir.**

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən bu sahədə mühüm layihələrin təşviqi xüsusi qeyd olunmalıdır.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") layihəsi çərçivəsində növbəti ağacəkmə aksiyasına Ədliyyə Nazirliyi də qoşulub. Ədliyyə və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşlarının, IDEA və "Ədliyyə könüllüləri" ictimai birliklərinin üzvlərinin iştirakı ilə Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində 1 hektar ərazidə 1.000-dək şam və zeytun ağacları əkilib.

# Vaksinasiya ilə bağlı saxta sənəd verən 12 nəfər işdən kənarlaşdırılıb

***"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə ərazisində peyvəndləmə prosesi dövlət hesabına könüllü şəkildə davam edir.***



Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB-in birgə məlumatında qeyd edilir ki, son zamanlar müxtəlif kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə koronavirus əleyhinə peyvəndin vurulması ilə bağlı vətəndaşların saxta sənəd əldə etməsi barədə məlumatlar yayılmışdır. Yayılan məlumatların yerindəcə araşdırılması və yoxlanılması aidiyyəti qurumlar tərəfindən təmin edilmişdir. Araşdırmanın nəticəsi olaraq Bakı şəhəri üzrə 7 və 12 nömrəli şəhər poliklinikalarında, Şəki Rayon Mərkəzi Xəstəxanasında, Sumqayıt şəhəri üzrə 2, 3 və 5 nömrəli uşaq poliklinikalarında, 3 saylı Şəhər Xəstəxanasında, Gəncə şəhəri üzrə 2 nömrəli Şəhər Poliklinikasında çalışan ümumilikdə 12 nəfər işdən kənarlaşdırılmış və onların əmək müqavilələrinə xitam verilmişdir. Qeyd olunmalıdır ki, göstərilmiş halların qarşısını almaq məqsədi ilə araşdırmalar davam edir və hüquq pozuntusuna yol verən tibb işçiləri haqqında müvafiq tədbirlər görüləcək.

# Zəngilanda "Ağıllı kənd"in 42 hektarı minalardan təmizlənib

**Azərbaycan Minatəmizləmə Agentliyi işğaldan azad edilən ərazilərdə 906 hektar əkin sahəsini minalardan təmizləyib. Bunu Agentliyin operativ qərargahının rəhbəri İdris İsmayılov deyib.**

O bildirib ki, hazırda bu ərazilərin təmizlənməsi prosesi davam etdirilir: "Təmizlənmiş yerlər Ağdam, Zəngilan və Qubadlı rayonlarındadır. Həmçinin, cənab Prezidentin bu ilin fevral ayında Zəngilan şəhərinə səfəri zamanı "Ağıllı kənd" və "Ağıllı şəhər" layihəsi çərçivəsində təmizləmə əməliyyatı başlanıb. Həmin ərazidə ilkin mərhələdə 50 hektar ərazidə yaşayış sahəsinin salınması planlaşdırılır ki, artıq agentlik tərəfindən 42 hektar, yəni qeyd edilən ərazinin 86 faizi təmizlənərək aidiyyəti üzrə təhvil verilib. Yerdə qalan 8 hektar ərazi isə bir neçə günə təmizlənərək təhvil veriləcək". İ.İsmayılov qeyd edib ki, daha sonra yeni salınacaq yaşayış məntəqəsinin ətrafında olan kənd təsərrüfatına yararlı torpaqların təmizlənərək təhvil verilməsi nəzərdə tutulur.



■ **Azərbaycan Ordusunun zabiti Murtuz Zeynalov Böyük Britaniyanın Sandhurst Kral Hərbi Akademiyasında təhsilini fərqlənmə ilə başa vurub. Bu barədə Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin Twitter" hesabında paylaşım edilib.**

Paylaşımda Murtuz Zeynalov Sandhurst Kral Hərbi Akademiyasında təhsilini fərqlənmə ilə başa vurması münasibətilə təbrik edilib. "Zabit Zeynalov beynəlxalq kursant kimi xüsusi xidmət göstərdiyinə görə "Hodson's Horse Award" Mükafatına layiq görülüb. Birləşmiş Krallıq mütəmadi olaraq Azərbaycanın və bölgənin Silahlı Qüvvələrinin heyətini Britaniyalı həmkarları ilə birlikdə peşəkar hərbi təlimlərdə iştirak etməyə dəvət edir", - deyə paylaşımda qeyd edilib.



■ **Azərbaycan 2021-ci ilin sentyabrında Avropa ölkələrinə təzə xurma ixrac edəcək. Bunu Trend-ə Azərbaycan Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Qədir Yusifov deyib.**

O bildirib ki, Azərbaycan ilin əvvəlindən 37 tondan çox xurma ixrac edib. İl ərzində ixrac təxminən 2 dəfə artıb: "Qeyd olunan dövrdə xurma ixracı 30 milyon dolları ötüb. 2021-ci ilin məhsulu sentyabr ayında Rusiyaya və Avropa ölkələrinə tədarük olunacaq". Onun sözlərinə görə, sentyabrda fermerlər bütün aqrotexniki tədbirləri başa çatdıracaq: "Təzə xurmanın bir kiloqramının ixrac qiyməti ötən il orta hesabla 1,5 dollar, quru və dondurulmuş xurmanın qiyməti 10 dollar təşkil edib.



■ **İşğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, sosial-məişət şəraiti və qoşun xidmətinin təşkili ilə bağlı təxirəsalınmaz tədbirlər çərçivəsində modul tipli yataqxanaların quraşdırılması prosesi həyata keçirilir.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, şəxsi heyətin səhra şəraitində kompakt yerləşdirilməsi üçün nəzərdə tutulan, müasir tələblərə cavab verən avadanlıqlarla təchiz edilən bu modul tipli yataqxanalarda bütün infrastruktur yaradılıb. Elektrik, su və qaz xətləri çəkilən yataqxanalar tibb məntəqəsi, yeməkxana, mətbəx, silah otağı və hamam-sanitar qovşağı ilə təmin olunub. Bu istiqamətdə müvafiq tədbirlər planlı şəkildə davam etdirilir.



■ **Almaniyanın "Frankfurt Allgemeine Zeitung" (FAZ) nəşri Azərbaycanın istifadə etdiyi Türkiyə və İsrail PUA-ları tərəfindən 190-dan çox erməni tankı və zirehli texnikasının məhv edilməsinin alman ordusunda şoka səbəb olduğunu yazıb.**

Hafta.az xəbər verir ki, FAZ-ın məqaləsində Almaniya Müdafiə Nazirliyinin ordunun hava hücumundan müdafiə sisteminin PUA-ların qarşısını almaqda yetərli olmadığını etiraf etdiyi vurğulanıb. Müdafiə naziri Anneqret Kramp-Karrenbauerin bu problemi aradan qaldırmaq üçün hava hücumundan müdafiə sisteminin tamamilə yenidən qurulması üçün bəzi təkliflər hazırladığı qeyd edilib. "PUA-lar 190-dan çox erməni tankını və zirehli texnikasını məhv edib.



■ **Aprelin 9-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Azərbaycanda diplomatik fəaliyyəti başa çatan fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi və ölkələrimiz üçün faydalı olduğu vurğulanıb.

Səfirlə əvvəlki görüşlərini xatırlayan Müdafiə naziri ölkələrimiz arasında əlaqələrin inkişafına verdiyi töhfəsinə görə diplomata təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.




■ **İşğaldan azad edilən ərazilərdə, həmçinin evlərdə, obyekt və sair binalarda ermənilər tələ minalar da quraşdırıblar.**

Bunu mətbuata açıqlamasında Azərbaycan Minatəmizləmə Agentliyinin Operativ qərargahının rəhbəri İdris İsmayılov deyib. O bildirib ki, hətta onlar bu ərazilərdə iki minanı üst-üstə qoyub, 4-5 minanı bir yerə basdırıblar:

"Bununla yanaşı, onlar səngərlərin künc hissəsində üzərinə torpaq tökməklə minalar yerləşdiriblər. Bu cür minalar axtarış zamanı tapılmır, sonradan ərazi təmizlənərkən həmin minalara rast gəlinir. Düşmənlər geri çəkilərkən bu cür hiylələrə əl ataraq tələ qurublar".

## Araşdırma

***ABŞ prezidenti Co Baydenin 2,3 trilyon dollarlıq "Yaşıl enerji" və infrastruktur xərclər planı dünyanın hər yerində gümüşə ehtiyacı artırmaqdadır. Təbii ki, bu da gümüşün bazarda qiymətinin qısa müddətdə maksimum sürətlə yüksələcəyinə işarə edir. Metal və enerji sahəsində ixtisaslaşan beynəlxalq araşdırma qrupu "The Gold & Silver Club"un analisti Fil Karrın fikrincə, yaxın gələcəkdə gümüşün bazar qiyməti üç dəfə yüksələcək. Səbəb isə budur ki, artıq günəş enerjisindən istifadənin, külək enerji stansiyalarının iş həcmi hər gün artır, benzin və qazla işləyən avtomobillər isə elektrik mühərriki ilə işləyən modellərlə əvəzlənir. Həm günəş panellərində, həm külək turbinlərində, həm də elektrikli avtomobillərin batareyasında isə əsasən gümüşdən istifadə edilir. Bayden planına əsasən yalnız bu il ərzində ABŞ-ın gümüşə tələbatı 3 min tonu aşacaq. Amma bir problem var ki, dünya üzrə təbii şəkildə yayılmış gümüşün ehtiyatı olduqca məhduddur.***

# Yaxın gələcəkdə gümüş üç dəfə bahalaşacaq

Bu arada qeyd edək ki, gümüş ötən il 47 faizdən artıq dəyər qazansa da, son vaxtlar 9 faiz enib. Amma bu o demək deyil ki, qiymətdə ucuzlaşma davam edəcək - bu cür eniş-qalxış hər zaman olub və olacaq da. Məsələn, 2002 - 2006-cı illər arasında gümüş üst-üstə dörd dəfə 10 faizədək bahalaşıb və yenidən ucuzlaşıb.

Daha əvvəlki illərin məlumatlarına nəzər salsaq, gümüş 2011-ci ildə 57 dollara, 1980-ci ildə isə hətta 120 dollara satılıb. Bu gün 25 dollar səviyyəsində tərəddüd edir. F.Karrın fikrincə, indiki müşahidələrə əsasən gümüş dünya bazarında daha 2 dollar ucuzlaşaraq 23 dollara satıla bilər. Amma ondan aşağı enməyəcək. Əksinə, yüksəlişə keçəcək və 100 dollaradək bahalaşacaq.

Dünyada gümüş ehtiyyatlarının 60 faizi Amerika qitəsindədir. Bunun da 35 faizi Meksikanın (152,8 min unsiya), 12 faizi Perunun (109,8 unsiya), 11 faizi isə ABŞ-ın (36 milyon unsiya) payına düşür. Bundan başqa, Çində 103,9 unsiya, Avstraliyada 55,2 milyon unsiya, Çilidə 42,1 milyon unsiya, Polşada 40,8 milyon unsiya, Rusiyada 40 milyon unsiya, Boliviyada 30 milyon unsiya, Argentinada 22,6 milyon unsiya, Kanadada 19,1 milyon unsiya, Qazaxıstanda 17,6 milyon unsiya, Hindistanda 11 milyon unsiya, İsveç 9,1 milyon unsiya, Qvatemala 8,8 milyon unsiya, Mərakeş 7,3 milyon unsiya, İndoneziya 6 milyon unsiya, İran 3,5 milyon unsiya gümüş ehtiyyatına sahibdir. Papua-Yeni Qvineya da dünyanın əhəmiyyətli gümüş ehtiyyatına malik ölkələrindəndir.

Hazırda dünya miqyasında gümüşün ən böyük yataqları Kanadada "Kobalt", Çilidə "Çanyarkilo", Meksikada "Paçuka", "Real-del-Monte", Norveçdə "Kongsberq", Almaniyada "Şneeberq", "Mansfeld", Çexiyada "Yaximov", Rusiyada Turin mədənləri, Ukraynada "Zakarpatye" və sairdir.

Qardaş Türkiyə dünyada ən çox gümüş ehtiyatı ilə təmin olunmuş 20 ölkə arasında 14-cü yeri tutur və dünya gümüş ehtiyatlarının 10 milyon unsiya qismınə və ya 2 faizinə sahiblik edir. Türkiyədə yeganə gümüş yataqları Gümüşlü adlanan bölgədə yerləşir. Bunlar Kütahya-Gümüşköy yataqlarıdır. Kütahya-Gümüşköy gümüş yatağı 21,5 milyon ton ehtiyyata malikdir ki, bu da 3827 ton metal gümüş deməkdir. Türkiyədə ikinci iri gümüş yatağı Artvin-Cerattəpə olub, 7,3 min ton ehtiyyata və ya 1345 ton metak gümüş çəkisi deməkdir.

■ **Azərbaycan ərazisində müstəqil gümüş yataqları məlum deyil. Bu mineral sərbəst şəkildə bir çox qurğuşunsink, kolçedan, qızıl filizi, kobalt, dəmirkobalt yataqlarında mövcuddur ki, buna Ağdərə, Mehmana, Gədəbəy, Vejnəli, Bağırsaq, Şimali-Daşkəsən, Cənubi-Daşkəsən, Ağduzdağ, Filizçay və başqa mədənlərdə rast gəlinir. Qeyd edək ki, 4 kiloqram ağırlığında sərbəst gümüş külçəsi Çıraqdərə kolçedan yatağı rayonunda Çaykənd delüvisində aşkar olunub. Səpinti gümüşü Tərtər və Tutqun çayları hövzələrinin allüvial çöküntülərində də tapılıb.**

Bu gün gümüşün ən böyük idxalatçıları Hindistan, Avropa Birliyi və ABŞ-dır.

Bəs dünyada gümüş istehsalı və ixracı ilə məşğul olan əsas şirkətlər hansılardır? Bunlardan ən böyüyü "Wheaton Precious Metals Corp"dur (WPM). Bu şirkət özü birbaşa gümüş yataqlarının axtarışı və işlənməsi ilə məşğul olmasa da, dünyanın hər yerindəki əlaqədar şirkətlərə sponsorluq edir, yataqların işlənməsi sahəsində investisiya yatırır və sair. Bunun sayəsində, adıçəkilən şirkət hazırda 200 milyon unsiyadan çox gümüş ehtiyyatına sahibdir. Hazırda şirkətin bazar gücü 12,3 milyard dollardır.

Gümüş istehsalı sahəsində ikinci iri şirkət "First Majestic Silver Corp."dur. Şirkət gümüşün axtarışı, işlənməsi və istehsalı, həmçinin mövcud gümüş mədənlərinin əldə edilməsi ilə məşğuldur. Şirkət orta ölçülüdür, bazar gücü 2 milyard dollardır. Bununla birlikdə, "First Majestic" əla böyümə perspektivlərinə malikdir. 2017-ci ilin dekabrınadək altı mədənə sahib idi və onun illik təmiz gümüş istehsalı, 2006-cı ildə təxminən 2 milyon unsiyadan hazırda 12 milyon unsiyayadək artıb. Kiçik gümüş mədən şirkətlərindən olduğuna görə, 2017 - 2018-ci illərdə gümüşün ucuzlaşması səbəbindən böyük itkilərlə üzləşib.

Pan American Silver Corp. (PAAS) Meksika və Cənubi Amerikada gümüş mədənlərinin axtarışı, inkişafı və istehsalı ilə məşğuldur. Gümüş istehsalına eksklüziv diqqət yetirməsinə baxmayaraq, qızıl, mis və sink satır. Şirkət dünyanın altıncı ən böyük gümüş istehsalçısıdır və dördüncü ən böyük gümüş ehtiyatına sahibdir.

"Pan American" 2017-ci ildə nağd xərcləri 28 faizədək azaltsa da, 2019-cu ildən başlayaraq yenidən bu sahəyə diqqəti artırmaqdadır.

Endeavour Silver Corp (EXK) da "First Majestic" kimi böyümə potensiallı şirkətlərdəndir. Kanadada yerləşən şirkət Çili və Meksikada gümüş və qızıl yataqlarının axtarışı, işlənməsi, hasilatı və ixracı ilə məşğul olur. Hazırda işlətdiyi mədənlərdə iki yeni genişləndirmə proqramı həyata keçirən şirkət gələcəkdə dünyanın ən yaxşı gümüş istehsalçıları siyahısına düşmək niyyətindər.

"Endeavour Silver" 340 milyon dollarlıq nisbətən kiçik kapital ehtiyyatına malikdir.

Daha bir şirkət - Hecla Mining Company (NYSE: HL) Şimali Amerikadakı ən qədim gümüş və qızıl istehsalçısıdır. Şirkət 1891-ci ildə Aydaho ştatının Coeur d'Alene şəhərində qurulub və ABŞ-da əsas aşağı qiymətli gümüş mədən şirkətlərindən biri olaraq tanınır.

Şirkət Aydaho və Alyaskada gümüş mədənlərinə sahibdir və Kvebekdəki mədən əməliyyatı sayəsində əhəmiyyətli qızıl istehsalçısına çevrilir. "Hecla Mining", ABŞ, Kanada və Meksikada beş əlavə qızıl və gümüş mədən işlərində perspektivli kəşfiyyat və inkişaf layihələrinə sahibdir. Şirkət dünya gümüş ehtiyatlarında cəmi 200 milyon unsiya ilə yeddinci yerdədir və illik istehsal gücü 12,5 milyon unsiyadır.

Son olaraq belə nəticəyə gələ bilərik ki, yalnız dövlətlər və ya ayrı-ayrı şirkətlər deyil, dünya ictimaiyyəti nəinki əlindəki gümüşü satıb-xərcləməyə çalışmamalı, əksinə, nə qədər ki, ucuzdur, imkanı daxilində ehtiyat toplamalıdır.

*Vüsal Tağıbəyli*



**Dünyada gümüş ehtiyyatlarının 60 faizi Amerika qitəsindədir. Bunun da 35 faizi Meksikanın (152,8 min unsiya), 12 faizi Perunun (109,8 unsiya), 11 faizi isə ABŞ-ın (36 milyon unsiya) payına düşür**

# 1 400 qazi və şəhid ailəsinə psixoloji yardım göstərilib

***Fövqəladə Hallar Nazirliyinin (FHN) dəvəti ilə Türkiyədən gəlmiş peşəkar klinik-psixoloq və psixoterapevtlər FHN-in mütəxəssisləri ilə birlikdə Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlarımızın, o cümlədən uşaq və yeniyetmələrin psixoloji reabilitasiyasını davam etdirirlər.***



FHN-dən hafta.az-a verilən məlumata görə, artıq aprel ayının 5-dən etibarən Bakı şəhəri ilə yanaşı, respublikanın cənub bölgəsini əhatə etməklə Lənkəran şəhərində də müharibədən və erməni terrorundan fiziki-mənəvi zərər görmüş vətəndaşlarımızın psixoterapevtik reabilitasiyasına başlanılıb.

Ümumilikdə ötən müddət ərzində Bakı, Gəncə, Bərdə və Lənkəran şəhərləri üzrə FHN-in "112" qaynar telefon xətti vasitəsilə mütəxəssislərin qəbuluna yazılmış 1400 nəfərə yaxın Vətən müharibəsi iştirakçısı, qazi, şəhid ailəsi üzvü və erməni terrorundan zərər görmüş digər şəxslərə, o cümlədən 120-yə yaxın uşaq və yeniyetməyə müvafiq yardımlar göstərilib.

Hazırda Bakı şəhərində və cənub bölgəsini əhatə etməklə Lənkəran şəhərində psixoloji yardım işi davam etdirilir.

Həmçinin, məlumat verildiyi kimi, aprelin 12-dən etibarən şimal-qərb bölgəsini əhatə etməklə Qəbələ şəhərində də türkiyəli psixoloq mütəxəssislərin iştirakı ilə müharibədən və erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşlarımızın psixoloji reabilitasiyasına başlanılacaq.

Ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün FHN-in "112" qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.



■ **Rusiya Prezidenti Vladimir Putinin Sankt-Peterburq Dövlət Akademik Mariinsk Teatrının Primorsk səhnəsinin baş xoreoqrafı, dünya şöhrətli rəqqas Eldar Əliyev bu ölkənin "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. Bu barədə Mədəniyyət Nazirliyi məlumat yayıb.**

Qeyd edək ki, Eldar Əliyev 1957-ci ildə Bakı şəhərində anadan olub. 1972-ci ildə Bakı Xoreoqrafiya Məktəbini bitirib. 1979-1992-ci illərdə Mariinsk Teatrının aparıcı solisti olub. O, dünyanın 40-dan çox teatr səhnəsində çıxış edib. 1996-2005-ci illərdə onun rəhbərliyi ilə ABŞ-ın "Ballet International" truppası 30-dan çox tamaşa hazırlayıb. Eldar Əliyev bu gündək məşləhətçi, xoreoqraf, baletmeyster kimi Buenos-Ayres, Sidney, Seul, Şanxay, Pekin, Bankok, Madrid, Berlin, Ottava, Roma teatrlarında dünya klassikasının bir sıra nümunələrinin tamaşaya qoyulmasında iştirak edib.



■ **Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən külli miqdarda brilyant qaşların qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb.**

DGK-dan verilən məlumata görə, İstanbul-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşına məxsus çamadan Heydər Əliyev Beynəlxalq Aeroportunda rentgen aparatından keçirilən zaman monitorda şübhəli əşyaların təsviri müşahidə edilib. Daha sonra vətəndaş yoxlama otağına dəvət olunub. Yoxlama zamanı vətəndaşa məxsus çamadanda olan "Tiffany Glucose" peçenye paketlərinin içərisində, ümumilikdə 10 ədəd sellofan bükümdə müxtəlif ölçülü 441 qram brilliant qaşlar aşkar edilib. Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəyinə əsasən, aşkar olunan brilliant qaşların ümumi kütləsi 2171 karat, orta qiyməti, təxminən 224 min manat təşkil edir. Faktla bağlı araşdırma aparılır.



■ **Dünən 60-a yaxın jurnalist vaksinasiya olunub. Bunu mətbuata Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib. Ə.Amaşov bildirib ki, növbəti həftənin 1-ci günündən jurnalistlərin vaksinasiya prosesi davam etdiriləcək: "Məqsədimiz odur ki, yaşı 18-dən yuxarı olan bütün jurnalistlər vaksinasiya olunsun, təbii ki, könüllü əsaslarla.**

Bilrsiniz ki, jurnalistika da riskli bir sahədir, çünki jurnalistlər insanlarla tez-tez görüşür, tədbirlərdə iştirak edir, həmişə cəmiyyətdə öndə gedirlər. Vaksinasiya üçün müraciət edən jurnalistlərin sayı artmaqdadır. Artıq 500-ə qədər jurnalist vaksinasiya olunmaq üçün müraciət edib. Vaksinasiya olunmaq istəyən bütün jurnalistlər vaksin olunana qədər bu prosesi davam etdirəcəyik".



■ **Dünyada koronavirus vaksinlərinin 87 faizi yüksək və ortagəlirli ölkələrin payına düşür. Azgəlirli ölkələr isə yalnız vaksinlərin 0,2 faizini əldə edir. Bunu Ümümdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Gebreyesus deyib.**

O bildirib ki, dünyada 700 milyon dozadan çox vaksin qeydə alınıb və bunun əksəriyyəti yüksək və ortagəlirli ölkələrin payına düşür. ÜST rəhbərinin sözlərinə görə, yüksəkgəlirli ölkələrdə hər dörd sakindən biri peyvənd olunub. Azgəlirli ölkələrdə isə bu göstərici 500 nəfərdən birinə bərabərdir.

COVAX mexanizmi barədə danışan T.Gebreyesus deyib ki, martın sonunadək 100 milyon vaksinin paylanması nəzərdə tutulurdusa, yalnız 38 milyon dozanı paylamaq mümkün olub.

## SUAL-CAVAB

***Kimlər sanatoriya-kurort müalicəsi ilə təmin edilə bilərlər?***

- Əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud uşaqların, İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil edilməklə, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlar (işləməyən əlillər).

***Fiziki şəxslər tərəfindən təyinatı istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan hesab edilmiş hansı hədlər daxilində qızıl və ondan hazırlanmış zərgərlik məmulatları gömrük ödənişlərini ödəmədən gömrük ərazisinə gətirilə bilər?***

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş qaydaları"nın 2.1.10-cu bəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 188.1.1-ci maddəsi ilə müəyyən olunmuş aksiz vergisindən azadolmalar nəzərə alınmaqla, hər təqvim ayı ərzində bir dəfə 18 yaşına çatmış hər bir fiziki şəxs tərəfindən şəxsi istifadə üçün gömrük ərazisinə gətirilən 20 qram qızıl və ondan hazırlanmış zərgərlik məmulatları güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) gömrük ərazisinə gətirilə bilər.

***Əlil arabası ilə təmin olunmaq üçün hansı sənədlər tələb olunur?***

- "Əlil arabası ilə təmin olunmaq üçün Protez-Ortopedik Bərpa Mərkəzinə və ya onun filiallarına aşağıdakı sənədlər təqdim olunur:
- Şəxsiyyət vəsiqəsi;
- Tibbi-sosial ekspert komissiyasının əlil arabasına aid olan qərarı;
- Əlillik dərəcəsini təsdiq edən sənəd".

***İşsizlikdən sığorta ödənişi hansı şərtlər daxilində və hansı müddətdə təyin edilir?***

- Sığorta ödənişini almaq hüququna yalnız dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində, habelə əmək müqaviləsinin müddəti qurtarması nəticəsində əmək münasibətlərinə xitam verilmiş və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar malikdirlər.

"İşsizlikdən sığorta haqqında" qanuna əsasən, sığorta ödənişi almaq hüququ olan şəxslərə sığorta ödənişinin təyin olunması aşağıdakı qaydada həyata keçirilir:

-işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından çox, lakin ən azı 1 il sığorta stajına malik əmək qabiliyyətli şəxslərə - "İşsizlikdən sığorta haqqında" Qanunun 14.1-ci maddəsində müəyyən olunmuş qaydada;

-işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından az, lakin ən azı 1 il sığorta stajı olan əmək qabiliyyətli şəxslərə - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan minimum aylıq əməkhaqqı məbləğinə bərabər sığorta ödənişi məbləğində.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 146-cı maddəsinə əsasən müəssisədə işin dayandırılması ilə əlaqədar qrup halında məzuniyyətə buraxılmış "İşsizlikdən sığorta haqqında" Qanunun 13.2.2-ci maddəsində nəzərdə tutulmuş şəxslər üçün sığorta ödənişinə 1,2 əmsal tətbiq olunur.

Himayəsində 18 yaşa çatmamış uşaq olan (əyani təhsil alan tələbələr və şagirdlər təhsili bitirənədək, lakin 23 yaşından çox olmamaqla) "İşsizlikdən sığorta haqqında" Qanunun 13.2.1-ci və 13.2.2-ci maddələrində nəzərdə tutulmuş şəxslərin əsas sığorta ödənişinə "İşsizlikdən sığorta haqqında" Qanunla müəyyən olunmuş əlavə almaq hüququ vardır.

İlk dəfə sığorta ödənişi təyin olunduğu vaxtdan 24 ay ərzində "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş münasib işlə təmin olunmayan şəxsin bir dəfə təkrar müraciət edərək yenidən minimum sığorta ödənişi almaq hüququ vardır. Sığorta ödənişi ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin edilir.

*Sevinc*

Moda

# Bu ilin yaz-yay kolleksiyası



**Şəlalə Maqsudova,**
modelyer

*Rahatlıq və komfortun hökm sürdüyü bir ilin ardından moda dünyası 2021-ci ildə, deyəsən, bu səssizliyi pozmaqda qərarlıdır. Ötən il qarderoblarda qalan ziyafət geyimlərinə bu yaz ümidlər artıb. Üstəlik, 2020-də moda dünyasına daxil olan maskalar indi sabitləşmiş vəziyyətdədir. Bəs görəsən, bu il yaz və yay mövsümündə əsasən hansı rənglər və geyim növləri trend olacaq? Ötən illərdən fərqli olaraq, bizi moda dünyasında bu yay hansı yeniliklər gözləyir? Maskanın və ümumiyyətlə, koronavirusun moda sahəsinə təsiri geyimlərdə özünü büruzə verəcəkmi? İlin populyar aksessuarları, çantaları necə olacaq?*



*“Heç bir ilin moda trendləri yaddan çıxmır. Sadəcə olaraq zamanla həmin biçimlərə, formalara qayıdış olur*

**■ Hafta.az-ın əməkdaşı yaz və yay aylarının dəbi ilə bağlı mütəxəssis yanaşmasını öyrənmək üçün mövzu ilə bağlı tanınmış modelyer Şəlalə Maqsudovaya müraciət etdi.**

Onun sözlərinə görə, aprel ayı dəb aləmində bir növ keçidi xarakterizə edir. Əvvəllər trend olan rənglər, parça növləri və biçimlər bu ayda dəyişilir.

### Yaz kolleksiyası

İlin yaz kolleksiyasında daha çox torpaq - boz və onun çalarları, qəhvəyi rənglər üstünlük təşkil edəcək. Ağ və qara isə hər zaman olduğu kimi, öz üstünlüyünü qoruyub saxlayır. Bu klassik rənglər ilin bütün fəsillərində dominant olaraq qalmaqdadır.

### Yay kolleksiyası

Yayda isə favorit daha çox bir tonun üzərində həndəsifiqurlu rəngli parçalardır. Forma cəhətdən isə yaz-yay kolleksiyalarında büzməli paltarlar gündəmdə olacaq.

### Ətəklər və pencəklər

İndi uzun deyil, nisbətən qısa və boş ətəklər trenddir. Xüsusən də paltarların qollarında büzməli və enli formalar dəb olacaq. Pencəklərdə isə boş, enliçiyin, bədən ölçüsünə böyük formalar üstünlük təşkil edəcək. Ətəklərdə isə boşbiçimli, diz ölçüsünə uyğun, trapes, büzmələr ilin populyar geyim formaları olacaq.

### Koronavirus dəb aləmində

Əvvəlki illərdən fərqli olaraq hazırda maskalar da trenddir. İndi tanınmış firmalar var ki, öz geyimlərində maskaları xüsusi vurğulayıb. Həmin maskalar geyimlərə uyğun, xüsusi hazırlanıb.

### Mövsümün trend parçaları

Mövsümün ən populyar parçaları ştapel və kətan r olacaq.

### Aksessuarlar

Bu ilin dəbdə olacaq ayaqqabı və çantaları, əsasən, iki rəngdən ibarətdir. Məsələn, ayaqqabının, daban hissəsi ilə digər hissəsi müxtəlif rənglərdə olacaq.

Bu fərqlilik çantalar üçün də nəzərdə tutulub. Aksessuar seçiminə gəldikdə isə bu il zərif və gümüşürəngli əlavələr dəbdədir.

Mütəxəssis onu da qeyd etdi ki, heç bir ilin moda trendləri yaddan çıxmır. Sadəcə olaraq zamanla həmin biçimlərə, formalara qayıdış olur.

2021-ci ilin geyim trendləri bizə 1960-1970-ci illərin dəbini xatırladır. Bu həm parça seçimində, həm biçimlərdə, həm də rənglərdə özünü büruzə verir.

*✍ Banu*

# “Qadınların İKT sahəsində rolu”

**Müasir dövrümüzdə informasiya-kommunikasiya texnologiyaları (İKT) ən çox ehtiyac duyulan və müraciət edilən sahələrdən biridir. Azercell bu sahədə çalışan və öz sözünü deyən qadınları bir araya gətirib. Belə ki, “Azercell Telekom” MMC-nin təşkilatçılığı ilə “Qadınların İKT sahəsində rolu” mövzusunda onlayn müzakirə keçirilib.**




Müzakirə ən son texnoloji danışıq platformalarından olan “Klabhaus”da “Azercell otağı”nda baş tutub. Tədbirə əsas qonaqlar qismində Azərbaycanın İKT sahəsində öz peşəkarlığı ilə tanınan qadın mütəxəssisləri qatılıb. Belə ki, Yana Krimpe (B.EST Solutions şirkətinin təsisçisi və direktoru), Günel Səfərəliyeva (MONT MMC-nin baş direktoru), İnarə Quliyeva (HPE Azərbaycan Nümayəndəliyinin rəhbəri), Xavər Babazadə (“Azercell Telekom” MMC-nin Şəbəkə Texnologiyası şöbəsinin rəhbəri) İKT sahəsində qadınların rolundan, bu istiqamətdə uğur qazanmaq üçün vacib olan şəxsi və peşəkar keyfiyyətlərdən, eləcə də son illərdə proqramçı, İT mühəndisi peşələrində çalışan qadınların uğur qazanmaq statistikasının yüksəlişindən bəhs ediblər. Onlayn sessiya hər kəsin sərbəst şəkildə sual verib, münasibət bildirməyinə açıq şəkildə keçib. Dinləyicilər tədbirlə bağlı müsbət fikirlərini bölüşüblər.

Hazırda bütün dünyada daha çox qadının İKT sahəsinə cəlb olunması istiqamətində ciddi işlər görülsə də, ən sivil ölkələrdə belə, çətinliklər və maneələr mövcuddur. Bu sahədə çalışan qadınlar İKT üzrə ümumi işçi bazarının cəmi 26% təşkil etməkdədir. Onlayn müzakirənin spikerləri Azərbaycanda qadın olaraq İKT sahəsində uğur qazanmağın imkanlarından da danışıblar, başqa ölkələrlə müqayisədə cinsi diskriminasiyanın yox dərəcədə olduğunu qeyd ediblər. Azercell Telekom da işçi seçimi zamanı bu kimi məsələlərə diqqət edir. Məlumat üçün bildirək ki, şirkət işçilərinin 42% məhz qadınlar təşkil edir. Şirkət üzrə rəhbər vəzifələrdə təmsil olunan xanımların sayı isə 30% çoxdur. Qeyd edək ki, “Azercell Telekom” MMC-nin Şəbəkə Texnologiyası şöbəsinin rəhbəri Xavər Babazadə İKT istiqamətində səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “Əməkdar Mühəndis” fəxri adına layiq görülüb. Xatırladaq ki, bütün dünyada aprelin sonuncu həftəsinin dördüncü günü ”İKT-də qızlar” günü kimi qeyd edilir. Qabaqcıl Texnologiyalar sahəsində daim öncül olan Azercell Telekom qadınların İKT sahəsinə cəlb olunması, onları motivasiya etmək və özgüvənlərini artırmaq, bu istiqamətdə inkişaf etməsi məqsədilə hər il çoxsaylı tədbirlər keçirir, önəmli sosial layihələrə imza atır. İKT sahəsində peşəkar qadın kadrlarının yetişdirilməsinə xüsusi qayğı ilə yanaşan Azercell tərəfindən həyata keçirilən layihələr çərçivəsində müxtəlif proqramlar, görüşlər keçirilib, İT əsasları, LİNUX, CİSCO, ORACLE kimi proqramlar haqqında seminarlar təşkil olunub. Azercell Telekom bərabər imkanlar yaratmaq və inklüziv cəmiyyət qurmaq istiqamətindəki sosial fəaliyyətini bundan sonra da davam etdirəcək.

# Onlayn təhsil “Nar”ın “TƏHSİL+” internet paketi ilə daha rahatdır!




**Təhsilini onlayn qaydada davam etdirən tələbə, şagird və müəllimlər “Nar”ın təqdim etdiyi sərfəli “TƏHSİL+” internet paketindən yararlana bilərlər.**

İnternet paketi “Microsoft Teams” və “Zoom” kimi platformaları bir paketdə birləşdirməklə istənilən məkanda onlayn təhsilə imkan yaradır. Abunəçilər heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən hər iki tətbiqdən istifadə edə bilərlər. Qeyd edək ki, paket abunəçilərə cəmi 10 AZN ödəməklə sürət limiti olmayan 50GB təqdim edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya 777 nömrəsinə “T+” açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər. Qeyd edək ki, “TƏHSİL+” internet paketini “hotspot” funksiyası vasitəsilə paylaşmaq mümkündür.

“TƏHSİL+” internet paketi haqqında ətraflı məlumat <http://www.nar.az/tehsil-plus/> səhifəsindən əldə etmək olar.

## HƏFTƏ REYTİNQ

### Həftənin DOSTU



Prezident İlham Əliyev Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Yusif bin Əhməd əl Osaymini ”Dostluq” ordeni ilə təltif edib. Prezident İlham Əliyev aprelin 8-də Yusif bin Əhməd əl Osaymini qəbul edərkən ordeni ona təqdim edib.

### Həftənin TƏYİNATI



Azərbaycan Prezidenti İlham Əliyev Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə yeni sədr təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Zaur Rauf oğlu Mikayılov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilib. Z.Mikayılov 1992-1998-ci illərdə Türkiyədə Boğaziçi Universitetinin Biznesin İdarəedilməsi fakültəsini bitirib. 2001-2009-cu illərdə “Bakcell” şirkətində maliyyə şöbəsinin direktoru, 2009-2015-ci illərdə “Port Baku Towers”in baş direktoru, 2015-2016-cı illərdə “Pasha Construction” şirkətində şöbə müdiri, 2016-2018-ci illərdə ”Agro Dairy” MMC-də icraçı direktor işləyib. Zaur Mikayılovun son vəzifəsi 2018-ci ildən “Bravo Supermarket”in icraçı direktoru olub. 2021-ci il yanvar ayında bu işindən ayrılıb.

### Həftənin MƏRHUMU



“İki ay danışmadı. Üç gün öncə asta səslə dedi ki, məni xəstəxanadan evə apar”. Bu sözləri bir neçə gün öncə dünyasını dəyişən Xalq artisti Rafiq Hüseynovun (Rəmiş) xanımı Gülü Hüseynova jurnalistlərə açıqlamasında deyib. “Evə aparmadım. İynələr onu yaman günə qoymuşdu. İynə görən kimi pisləşirdi. Ölüm anında yanında tək idim. Həkimləri çağırdım, gec gəldilər. O mənim balam idi. O da getdi”, - deyə G. Hüseynova bildirib.

### Həftənin İTKİSİ



Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası II Yelizavetanın həyat yoldaşı, Edinburq Hersoqu II Filip bu gün 100 yaşında dünyasını dəyişib. Bu barədə Bukinqem Sarayının tvitter hesabında məlumat verilib. “Kraliça Əlahəzrət dərin kədərlə sevdiyi həyat yoldaşı, Edinburq Hersoqu Şahzadə Filipin ölümünü elan etdi”, - deyə açıqlamada qeyd olunub. Qeyd edək ki, II Filip 2017-ci ildən bəri ictimai tədbirlərdə iştirak etməkdən imtina edib. Bu ilin fevral ayında isə İngiltərə mətbuatında onun ürək əməliyyatı keçirdiyi barədə məlumat dərc olunmuşdu.

### Həftənin XƏSTƏSİ



İtaliyanın keçmiş Baş naziri Silvio Berluskoni yenidən xəstəxanadadır. Siyasətçi müayinə olunmaq üçün Milanda yerləşən “San Raffaele” xəstəxanasına gedib. Müayinədən sonra həkimlər növbəti müşahidələr üçün onun xəstəxanada saxlanılmasına qərar veriblər. “İrəli, İtaliya” partiyasının liderinin səhhətində hansı problemin olduğu açıqlanmayıb

### Həftənin QƏZASI



Latviya Prezidenti Eqils Levits Riqaa yol qəzasına düşüb. Bu barədə prezidentin dəftərxanası məlumat yayıb. Qəza Riqanın Maza Nometnyu və Liepayas küçələrinin kəsişməsində baş verib. Mühafizəçilərin idarə etdiyi avtomobil içərisində prezidentin olduğu “Lexus LS” markalı nəqliyyat vasitəsinə çırpılıb. Qəza nəticəsində dövlət başçısı xəsarət almayıb, prezidentin iş cədvəlində təsir etməyib.

*✍ Azad Əliyev*

## ELAN

**Rübabə Cahangir qızı Fərəcovanın adına verilmiş Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev 81A, birinci blok, 40-cı mənzillə bağlı Arko MTK-nın verdiyi müqavilə itirildiyi üçün etibarsız sayılır.**

## GÜNÜN FOTOSU



**İspaniyada polis tərəfindən döyülən etirazçı...**

# Xaricdə təhsil adı ilə aldadılanlar

**İlqar Orucov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi

Diplomu tanınmayan xarici universitetlərlə bağlı xeyli maarifləndirmə işləri aparılmalıdır.

⏩ Səh. 4

## STATİSTİKA



■ Norveç yığması dünyada yeganə futbol komandasıdır ki, Braziliyaya uduzmayıb. 4 dəfə qarşılaşan yığmaların oyununda 2 dəfə Norveç qalib gəlib, iki oyun isə heç-heçə başa çatıb.

■ Madaqaskar futbol komandalarından biri hakim səhvinə etiraz olaraq növbəti oyunda topu 149 dəfə öz qapısına vurub. Bu indiyə qədər ən çox qol vurulan oyun kimi tarixə düşüb.

■ Statistik göstəricilərə əsasən dünyada ən uzun futbol oyunu 1981-ci ildə İrlandiyanın iki komandası arasında reallaşıb. Qalibi müəyyənləşdirmək üçün 3 sutka oyun davam edib - 66 saat.



⏩ Səh. 7

# Yaxın gələcəkdə gümüş üç dəfə bahalaşacaq